**AĞAVERDİ NƏSİROV**
**(AĞA AQİL)**

# BİZİM VAĞZALIMIZ ÇALINMAYACAQ

**BAKI - 2022**

**Redaktor: Balayar SADİQ**
*AYB-nin və AJB-nin üzvü, YURD ədəbi-bədii, elmi-publisistik jurnalının baş redaktoru, "Qızıl qələm" mükafatı və beynəlxalq Rəsul Rza mükafatı laureatı*

**Ağaverdi Nəsirov (Ağa Aqil).**
**BİZİM VAĞZALIMIZ ÇALINMAYACAQ.**
**Bakı, "Gənclik" nəşriyyatı, 2022, 152 səh.**

*Bu kitab şairin oxucularla növbəti görüşüdür. Burada şairin məhəbbət mövzusunda və digər mövzularda şeirləri verilmişdir. İnanırıq ki, şairin bu kitabda təqdim olunan nakam və saf məhəbbətdən bəhs edən şeir nümunələri, haqq-ədalət sevgisi, vətən məhəbbəti, inam və xeyirxahlıq duyğuları, Qarabağ ağrısı, eləcə də ZƏFƏR duyğuları oxucuların marağına səbəb olacaqdır.*

ISBN ISBN 978-9952-8393-8-8

Kitabın istifadəsiylə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.

© Ağaverdi Nəsirov, 2022

# ÖN SÖZ

## YURD HƏSRƏTLİ ŞAİR DÜNYASI

*(Şair Ağaverdi Nəsirovun yaradıcılığı haqqında qeydlər)*

İstedad uca Tanrının insan övladına bəxş etdiyi ən dəyərli mənəvi sərvətidir. İstedadlı insan həvəs göstərdiyi sahədə özünəməxsus düşüncə və fikirlərlə həmişə seçilir. Seçilmək xüsusiyyətləri istedadın təbiətinə xas olan önəmli cəhətlərin inikasıdır. Xalqımız istedad sarıdan heç vaxt korluq çəkməyib.

Müqəddəs sözün saf çeşməsindən su içənlər o insanlardır ki, onların alın yazısından ulu Yaradanın təbəssümü boylanır. Ağaverdi Nəsirov belə istedadlı söz adamıdır.

İndi qürbətdə üşüyən qədim Qubadlı torpağında dünyaya göz açıb. Öz məzmunu ilə seçilən maraqlı və mənalı bir həyat yolu keçib.

Gənc yaşlarından ədəbi-bədii yaradıcılığa maraq göstərən Ağaverdi Nəsirovun ilk ədəbi imzasi Ağa Aqil olmuşdur. Onun qələm təcrübələrinin tarixi xronikası indi püxtələşmis qələm sahibi olmasından soraq verir. Əlbəttə, uğurlu yaradıcılıq prosesı üçün peşəkarlıqla yanaşı, şair ovqatının "sarı sim"də gəzişməsi vacib şərtlər sırasındadır. Bu mənada da Ağaverdi öz yaradıcılıq yolunda bu önəmli şərtə diqqət yetirir, yəni könlünə yatan, onu həyacanlandıran mövzulari, hadisələri qəlbinin poetik işığında təqdim edir.

Ağaverdi Nəsirovun şeirlərində millətə, yurda, vətənə, doğma ocağa bağlılıq hissi məxsusi poetika ilə səciyyələnir. Milli-mənəvi dəyərlərin, intizar, həsrət dolu sevginin, ləyaqət və insanpərvərlik duyğularının bədii tərənnümü onun bedii nümunələrində səmimi bir kaloritdə öz ifadəsini tapır. Zaman,

təbiət, insan amili onun bədii təfəkkürün tərkib hissəsi kimi çıxış edir və hər bir poetik nümunəsi bu konteksdən səciyyəvidir. İstedadlı şairin poetik məfkurəsi milli düşüncənin geniş üfüqlərini əhatə edir. Ağaverdi Nəsirovun poeziyasinin əsas atributu vətənpərvərlik mövzusudur və bu fakt bədii-fəlsəfi dəyəri ilə onun yaradıcılığına önəm gətirib. Onun şeirləri bədii-ictimai mündərəcə baxımından oxucuda maraq oyadır.

Vətənimizin böyük ağrısı olan Qarabağ dərdini, doğma Qubadlının həsrətini obrazlı poetik detallarla və səmimi duyğularla ifadə edir. Şairin "Xarıbülbül" şeiri elə bil yurd intizarının rəmzi səciyyəsini daşıyır. Bədii faktor kimi şeirin bir neçə bəndinə diqqət edək:



***Vətən bildin Qubadlını,***
***Qaçqın oldun, Xarıbülbül.***
***Sevindirmə gəl düşməni,***
***Üzün gülsün barı, bülbül.***

***Atəş yaxır gül haləsi,***
***Həm duyulur zənguləsi.***
***Möcüzələr möcüzəsi,***
***Yarı güldü, yarı bülbül.***

***Şəhidim var aman-aman,***
***Qisasım var yaman-yaman.***
***Ağlamışıq zaman-zaman,***
***Nə ağla, nə zarı bülbül.***

***Bura Cıdir düzü deyil,***
***Oxşarı var, özü deyil.***
***Bu qəzadı, yazı deyil,***
***Yaramı gəl sarı bülbül.***
***Qayıt, bülbül, dön geri get,***
***Kök at yaşa, murada yet.***

***Get, öz torpağında bit,***
***Get, Şuşada qarı bülbül.***

Bu ağrı dolu və poetik sanbalı ilə seçilən bədii nümunədən göründüyü kimi Ağaverdi Nəsirovun şeirlərinin lirik qəhrəmanı vətən, yurd həsrətiylə yaşayan insanların bədii obrazıdır.

İnsan mənəviyyatı zəngin və həssas olduğuna görə daxili iztirablarını, sevinc və kədərini həyat və cəmiyyət haqqında düşüncələrini ehtiva etmək üçün daha qüdrətli, həm də ecazkar bir vasitəyə ehtiyac var. Bu bənzərsiz vasitə bədii sənət və onun obrazlı dilidir. Məlumdur ki, yaradıcılıq istedadına malik olanlar həyat haqqındakı fikir və hisslərini sənət dili ilə ifadə edir, digər insanlar isə orada öz fikir və düşüncələrini, həqiqət və arzularını oxucu, dinləyici, tamaşaçı qismində tapmağa çalışırlar.

Hər bir insanın həyata, cəmiyyətə aid görüşləri, özü və başqaları haqqında arzu və niyyətləri, ümidləri özünəməxsus bir istiqamətdə intişar tapır. Lakin istedadlı insanı fərqləndirən başlıca amil, onun həyatda, ümumən insanlıq üçün dəyərli, əhəmiyyətli cəhətləri, bariz əlamətləri görə bilməsində, sənət dili ilə cilalayaraq, onun fəlsəfi mahiyyətini gözəlliyi və ülviliyi ilə kəşf etməsindədir.

Düşmən tapdağında qalan Qubadlının həsrəti onun şeirlərində poetik səmimiyyətlə ehtiva olunur. Sözün işığında doğma yerlərə, qürbət qoxulu xatirələrə üz tutan şairin poetik nəfəsi səmimi və təsirlidir. Bu şeirdə təqdim olunan bədii- etnoqrafik zənginlik diqqətəlayiqdir.

***"Qaşbaşı" dediyin yerlər qəlbidi,***
***Qəlbidən baxanda yaxşı olardım.***
***Mən qaçqın, didərgin adlandım indi,***
***Yurdumda bir daşın naxşı olardım,***
***Qəlbidən baxanda yaxşı olardım.***

***Yaddan çıxmır "Kəlbəəlinin tapı",***

***Mayılı yıxmışdı bir arıq yabı.***
***Əl tutdu, qazandı Bulud savabı,***
***O tapın qayası, daşı olardım,***
***Qəlbidən baxanda yaxşı olardım.***

***“Əyri dərə” həsrət qalıb bizlərə,***
***Bir qəriblik, hicran çöküb gözlərə.***
***Ağ tük artır, qırış köçür üzlərə.***
***Bu üzlərdə sevinc yaşı olardım,***
***Qırışların incə naxşı olardım.***

***Köhnə kişilərin olmaz yerinə,***
***Dözmədi dövranın dönük əmrinə,***
***Atam tablaşmadı qaçqın ömrünə,***
***Yurda dönsək, sağlam, yaxşı olardım,***
***Yarımçıq ömrünün yaşı olardım.***

***Ağaverdi biclik yoxdur soyunda,***
***Girinc olma, bu siyasi oyunda.***
***Yuyunarsan Həkərinin suyunda,***
***Dərddən qaçıb, dəcəl, naşı olardım,***
***Kəndə dönsək, yaman yaxşı olardım.***

Elə şairlər vardır ki, onların poetik düşüncəsinin cövhəri xalq təfəkkürünün dərinliyindən bəhrələnərək , insanın arzusunu, ümidini, bütövlükdə mənəvi dünyasını rəvan, səmimi və aydın bir bəddi intonasiya ilə sərgiləyir . Ağaverdi Nəsirov belə şairlərdəndir.

Onun şeirlərində əxlaqi-mənəvi mövzular lirik qəhrəmanın hiss və həyəcanlarını, duyğu və düşüncələrini əks etdirməklə yanaşı, həmçinin şeirin estetik prinsiplərini də əyaniləşdirir. Lirik qəhrəmanın məhəbbət, sevgi axtarışları, onun imtahanlardan, emosional sarsıntılardan keçən və möhkəmlənən insani keyfiyyətlərinin təsdiqini, həm də şeirlərin məzmun və mün-

dəricəsini təşkil edir. Lirik qəhrəmanın daxili aləminin, sevgi hisslərinin, məhəbbət iztirablarının ifadəsi onun söz palitrasında yeni rənglər, yeni çalarlarla üzə çıxır.

***İçimin harayı ərşə dirənib,***
***Sənin qulağına çatmayır hələ.***
***Sənsizlik ömrümün hicran dağıdır,***
***Yəqin ki, ağlına batmayır hələ.***

***Sən "Gözlə!" deyirsən, gözləyəcəyəm,***
***Ətrini, qoxunu özləyəcəyəm.***
***Ağrımı, acımı gizləyəcəyəm,***
***Çoban da qurbanlıq satmayır hələ.***

***Sevginin əzabı bəxtımin payı,***
***Səndən gələn olsun, dərd etmə sayı.***
***Səninçün tikmişəm könül sarayı,***
***Neynim ki, könlünə yatmayır hələ.***

***Mən gördüm səndəki təlatümləri,***
***Eşqsiz heç nəyin yoxdur dəyəri.***
***Çıxmaza döşənib vüsal qəmbəri,***
***Nəbzim də dayanıb, atmayır hələ.***

***Ağaverdi, quşlar nə duyub, getdi,***
***Payız-qışmı gəldi, tez uyub getdi.***
***Məni düşünmədi, yar qıyıb, getdi,***
***Dilim də söz nədi, tutmayır hələ.***

Şair ruhunun aynasidir  lirika. Çox zaman bu lirik nümunələr qələm sahibinin həyat və cəmiyyət haqqında düşüncələri, fərdi xarakteri, həmçinin şəxsiyyəti barədə dolğun təəssürat yaratmağa imkan verir. Lirik əsərlər obyektiv gerçəklik haqqında şair duyğularının obrazlı ehtivasıdır. Unutmaq lazım

deyil ki, şeirin, bütövlükdə lirik əsərlərin bədii sanbalını təmin edən başlıca amillərdən ən önəmlisi səmimiyyətdir.

Lirik əsərlərdə yenilik ruhu o vaxt diqqət kəsb edir ki, orada həyati müşahidə bədii materialın, poetik obyektin yeni cizgilərinə, görünməmiş tərəflərinə nüfuz etmiş olur. Agaverdi Nesirovun şeirlərində ictimai, mənəvi, əxlaqi tamlıq və halallıq mövzusu geniş yer tutur və onun dünyagörüşünün, bədii-estetik idealının müəyyənləşməsində, formalaşmasında əhəmiyyətli rol oynayır. Bu poeziyanın ən səciyyəvi xüsusiyyətlərindən biri onun müasirliyidir, yəni şair müasir həyatımızın təzadlarını, onun insanlara səadət bəxş edən məqamlarını və eyni zamanda, insanları əzab məngənəsində sıxan anları poetik məzmunda ehtiva edərək, onu yeni-yeni məna çalarları ilə zənginləşdirir.

Onun şeirlərində milli kolorit qüvvətli olduğu üçün böyük maraq doğurur. Bu cəhət şeirlərin mövzusunda, mütəmadi müraciət olunan qoşma janrının ahəng və ritmində, bədii təsvir vasitələrində nəzərə çarpır. O, insan mənəviyyatının qüdrət və gözəlliyini tərənnüm edəndə də, doğma yurdu vəsf edəndə də, elin adət-ənənələrindən yazanda da kolorit zənginliyi diqqəti cəlb edir.

Şair bəzən bir benddə lakonik poetik detallarla oxucu xəyalında orijinal lövhələr canlandıra bilir. Onun bir sıra şeirlərində mürəkkəb psixoloji vəziyyətlər, anlar və duyğular, hisslər aləmi çox zərif və dəqiq ifadəsini, bədii həllini tapmışdır. O, bədii dilin estetik gözəlliyinə, emosionallığına məsuliyyətlə yanaşaraq, məzmuna uyğun forma rəngarəngliyindən səriştəylə istifadə etməyi bacarır. Agaverdinin yaradıcılığında mənəvi-əxlaqi zənginliyin harmoniyası vardır. Bu mənada o, daim inkişaf edən həm forma və məzmun əlvanlığı, həm də poetika baxımından kamilləşən şairdir.

Bəllidir ki, bədii sənətin gücü böyük ideyanın, dəyərli fikrin obrazlı təcəssümündə, səmimi və təravətli ehtivasındadır. Bu keyfiyyətlər qələm sahibindən bədii-sözün məna çalarla-

rını, dilin incəliklərini duymağı, poetik obrazlar sistemində əsərin forma və məzmun vəhdətini yaratmağı, sənət qarşısında daim məsuliyyət hissini qorumağı tələb edir. Bütün bu məziyyətlər şair Agaverdi Nesirovun yaradıcılığında öz əksini tapmışdır.

Onun şeirdən-şeirə püxtələşməsi, yaradıcılığındakı forma və məzmun əlvanlığı, poetik imkanlarının getdikcə zənginləşməsi diqqətdən yayınmır.

Şairin yaradıcılığındakı lirik qəhrəmanın vətəndaşlıq mövqeyi, yurdsevərliyi, fəallığı mühüm önəm daşıyır. Onun poetik nümunələrində təqdim olunan haqq-ədalət sevgisi, vətən məhəbbəti, inam və xeyirxahlıq duyğuları, həmçinin Qarabağ ağrısı bütövlükdə onun vətəndaş şair obrazının ehtivasıdır.

Ona yaradıcılıq uğurlari arzulayıram!

**BALAYAR SADİQ**
*AYB-nin və AJB-nin üzvü*
*YURD ədəbi-bədii, elmi-publisistik*
*jurnalının baş redaktoru, “Qızıl qələm”*
*mükafatı və beynəlxalq Rəsul Rza mükafatı laureatı*

# MƏNİM ŞEİRLƏRİM

Mənim şeirlərim söz səfərimdir,
yaxınım, uzağım, həndəvərimdir.
Arpa, buğda boyda boy dəyişdirib,
il-il pərvaz edən nəvələrimdir.

Mənim şeirlərim halal qazancım,
mənim şeirlərim alın tərimdir.
Şeir yazmaq deyil təkcə amacım,
şeir duyğularım, dərdim-sərimdir.

Mənim şeirlərim könül sevincim,
eşqim, xəyallarım, həvəslərimdir.
Deyə bilmədiyim, gizli tutduğum,
içimə çəkdiyim nəfəslərimdir.

Mənim şeirlərim peşimanlığım,
köksümə saplanan keşkələrimdir.
Qədərə tərs gələn sərt cavanlığım,
səbrimi tükətmiş övkələrimdir.

Şeir könüllərin ülfət qapısı,
Allah vergisidir, bu bir ənamdır.
Nizami dühası ən üst yapısı,
Hər bir şeir elə bir üst kəlamdır.

Nəsimi idrakı, Füzuli eşqi,
Müşfiq sevdasıdır, Vurğun dünyası.
Şeir mülklərinin aşkardır fərqi,
haqq aşiqlərinin safdır səması.

Sahib çıxacağam şeir mülkümə,
onlar ilk sevgimdir, son məhəbbətim.
Əbədi yasımdır mərhum ilkimə,
yarımçıq ömürdür öz səadətim.

Ay atam balası, yaxın gəl, yaxın,
mənim şeirlərim ilgilərimdir.
İlahi bir eşqin çox çəkdim dağın,
mənim şeirlərim sevgilərimdir.

**08.08.2021**

## BAŞQA YAZDIR

Bu qışın da yazı gəlir,
Qış da yazdır, yaz da yazdır.
Bitib hicran, qübar, nisgil,
Nağıllar qoş, dastan yazdır.

Düşmən girdi min bir dona,
Möhnət vardı, dözdük ona.
İndi qalıb yana-yana,
Mənim kefim amma sazdır.

Cavanlığım yada düşüb,
Qulağıma səda düşüb.
Fars, erməni oda düşüb,
Od tutsalar, belə azdlr.

Qayıdırıq  yurdumuza,
Qurban kəsək ordumuza.
Yığışaq öz odamıza,
Hər günüm hədis, namazdır.

Ağaverdi, dərd-sər qaçıb,
Arzuların çiçək açıb.
Həsrətini güllər sancıb,
Bu ilki yaz başqa yazdır.

**15.01.2021**



## VUR KAMANDİR, VUR

Ağdam viran qalıb, Xocalı yanıb,
Erməni bizləri təpərsiz sanıb.
Atılan bu mərmi bizə tuşlanıb,
Düşmən hədəfdədir, dur kamandir, dur.
Hədəf sədəfdədir vur kamandir, vur.

Yeyib qudurdular çörəyimizi,
Nişangah etdilər kürəyimizi.
Erməni qoy görsün hünərimizi,
Düşmən göz önündə, dur komandir, dur.
Tərəddüd eləmə, vur kamandir, vur.

Yaxşılıq, yamanlıq bilən deyillər,
Başından vurmasan ölən deyillər.
Kimlərsə pay atıb, sülən deyillər,
Dur, başına dönüm, dur kamandir, dur,
Düşmən hədəfdədir, vur kamandir, vur.

Şuşa məscidində donuz saxlayıb,
Müsəlman analar görüb ağlayıb.
Erməni sinəmi çarpaz dağlayıb,
Gecikmə, bir tələs, dur kamandir, dur,
Tərəddüd eləmə,  vur kamandir, vur.

Bir ağac görünmür kəndlərə baxsaq,
Kəsib talayıblar, qalmayıb qovaq.
İti qovan kimi bunları qovaq,
Yaxşıca nişan al, dur kamandir, dur,
Düşmən hədəfdədir, vur kamandir, vur.

Haylardan üz umma, üzsüzdü bunlar,
Yaltaq sifət varsa, sözsüz ki, onlar.
Hay-küyünə baxma, gücsüzdü bunlar,
Tərəddüd eləmə, dur kamandir, dur,
Başına dönərəm, vur kamandir, vur.

Alıb əlimizdən illərimizi,
Həsrətdə yandırdıq günlərimizi.
Ağaverdi çağır ellərimizi,
Sən də oyalanma, dur kamandir, dur,
Tərəddüd eləmə, vur kamandir, vur.

**23.10.2020**

# MƏNİM MƏZUNLARIM

İş həyatım bitdi, təqaüddəyəm,
Şeir yazmaq olub indi sənətim.
Şagirdlərim yada salırlar hərdən,
Bilməzdim...,
çoxumuş qədrim, qiymətim.

Hər biri düz yola rəvan olublar,
Xeyli püxtələşib, yaşa dolublar.
Məndən də görünür, nəsə alıblar,
Çox üstün tutulur sözüm, izzətim.

Olublar bu əsrin ilk məzunları,
Çox idi Leylisi və Məcnunları.
Göz yaşı tökürdü eşq məhzunları,
Yadıma düşürdü ilk məhəbbətim.

İyirmi ildən sonra görüşdük yenə,
Savadlı məzunlar verdim vətənə.
Şükürlər ilahi, şükürlər sənə,
Özümün özümə artır hörmətim.

Biri biznesmendir, o biri həkim,
Qarşılıq qazanıb müəllim sevgim.
Hətta keçərlidir hər cürə ərkim,
Ürəkləri olub sehrim, cənnətim.

Biri çinli zabit, dövlət məmuru,
Biri kamil rəqqas, çoxdur uğuru.
Biri öyrənməkdə tapıb hüzuru,
Sizdən rişə alır, deyir şöhrətim.

Biri xatırlayır əlimin duzun,
Sözümün kəsərin, dilimin "buzun".
Xatirə danışdıq biz uzun-uzun,
Onda çulğalaşıb mədəniyyətim.

Yenə əzizlədim "gülməşəkər"i,
Yenə yırtılmışdı sözün təkəri.
Bizim bağlantımız bizim Həkəri,
Onunla uzlaşır hər ülviyyətim.

Biri maliyyəçi, biri mühasib,
Biri şirkət qurub, mövqeyə sahib.
Hamının işi var, çox da münasib,
Mənim də bu olub elə niyyətim.

Şükür, reallaşmış "əziyyətim" var,
Özünü döğrultmuş nəsihətim var.
Ağaverdi,  buyur..., vəsiyyətin var,
Var allaha şükrüm..., bir də biətim.

**15.06.2021**

# QARABAĞ ATI

Hərəkətli, qıvraq, çevik,
Cinsi vəhşi, qədim minik.
Sanki uçur Şanapipik,
Bu at Qarabağ atıdır.

Möhkəm bədən, səlis yeriş,
Yalı gurdur, alnı geniş.
Güc, əzəmət, fərqli duruş,
Bu at Qarabağ atıdır.

Kəhər, kürən, qaşqa, səkil,
Qabarıq göz, qısa kəkil.
Əzələli, gözəl şəkil,
Bu at Qarabağ atıdır.

Yorğaların səlisidi,
Dəlilərin dəlisidi.
"Dilboz"ların vəlisidi,
Bu at Qarabağ atıdır.

Yeni ayğır, madyan, mələz,
Edə bilməz onu əvəz.
Qeyri-adi, üstün həvəs,
Bu at Qarabağ atıdır.

Belindəki Koroğlusa,
Dəli Həsən, Kürdoğlusa,
Çox düşərli, uğurlusa,
Bu at Qarabağ atıdır.

Qır at, Dür at, Alapaça,
Nal qığılcım saça-saça.
Qoymaz yad at öndə qaça,
Bu at Qarabağ atıdır.

Boz atına tumar vurdu,
Qaçaq Nəbi dava qurdu.
Dada çatdı, arxa durdu,
Bu at Qarabağ atıdır.

Parıltılı, narıncı rəng,
At üstündə gözəldir cəng.
"Çövkən" oynu coşqu, ahəng,
Bu at Qarabağ atıdır.

"Sultan", "Divar", "Şah", "Ağalar",
"Əlyetməz" cins, "Meymun", "Sərdar"[1],
Zabit minib şahə qalxar,
Bu at Qarabağ atıdır.

"Zaman" adı bəlirtisi,
Alqış alır hənirtisi,
Tərzi, rəqsi, kişnərtisi,
Bu at Qarabağ atıdır.

Kraliça sevgisi var,
Cıdırlarda sərgisi var,
Bir gözəllik vergisi var,
Bu at Qarabağ atıdır.

[1] "Sərdar", "Sultan", "Şah", "Ağalar", "Divar", "Meymun" atlı qvardiya alayında nümunəvi zabit atları olub. (https://images.app.goo.gl/fvZGFkKAakUD8Hns8)

At arxadır, at muraddır,
Çapar minsə, toy-büsatdır.
Uçan xalça, havacatdır,
Bu at Qarabağ atıdır.

Rəbbimizin bir nırxı var,
“Zəfər” yazan bir çarxı var.
Sabiq köçkün bir ilxı var,
Bunlar Qarabağ atıdır.

Ağaverdi atın mindi,
Qarabağı tam gəzindi.
Ya “Ceyran”dı, ya tilsimdi,
Bu at Qarabağ atıdır.

**08.05.2021**



## İNSAN GÖZLƏRİ

Əsl dostlar imiş insan gözləri,
Göz qırpıb, qaş dartıb, bir ağlayırlar.
Onları ayırır burun sipəri,
Birlikdə gülürlər, yas saxlayırlar.

Bir-birin görəmmir insan gözləri,
Nakam bir məhəbbət dastanı kimi.
Biri o birinin həsrətin çəkir,
Arazın sağ yanı, sol yanı kimi.

Əsl dostlar imiş insan gözləri,
Onlar sevgilərin ayıra bilmir.
Birinin baxışı yaysa nifrəti,
Digəri məhəbbət duyura bilmir.

Əsl dostlar imiş insan gözləri,
Sağı baxan yerə, solu da baxır.
Fərqlənir, seçilir qadın gözləri,
Sevsə daş qəlbi də yandırıb-yaxır.

İstəsə rəğbətlə, sevgiylə baxar,
Eşqinə talib ol, nifrətindən qaç.
Sevirsə, su kimi səmtində axar,
Sən də qayğısın çək, ol dərdə əlac.

Əsl dostlar imiş insan gözləri,
Mənim gözlərimdə məhəbbət çoxdur.
Fərqlidir, seçilir kişi gözləri,
Mənim gözlərimdə kin, nifrət yoxdur.

Mənim gözlərimin nuru üzümdə,
Üstümə nur səpir sevdiyim gözlər.
Nə hikmət varsa da qara gözümdə,
Baxıram nurlanır baxdığım üzlər.

Doğulur, yaşayır, köçür dünyadan,
Dəyişə bilmir ki,  insan qədəri.
Öləndə bərəlir..., doymur dünyadan,
Allah vergisidir insan gözləri.

# İGİDİN EŞQİ

Mən qalib ölkənin, qəhrəman xalqın,
İgid bir oğluyam, sevirəm səni.
Ürəyim pərvazdır, gözlərim dolgun,
Gəlmişəm Leylimə çevirəm səni,
İgid bir oğlanam, sevirəm səni.

Döyüşdə çox düşdüm çətinə, dara,
Qarşında oluram aciz, avara.
Subaylıq sultanlıq olmasın yara,
Gərək sultanlıqdan devirəm səni,
İgid bir oğlanam, sevirəm səni.

Məcnunluq məfhumdu, köhnə şərəfdi,
Məcnun aşiqidi, eşqə xələfdi.
Sevgimin yolları sizə tərəfdi,
Fürsət axtarıram, güdürəm səni,
İgid bir oğlanam, sevirəm səni.

Xəfif təbəssümün canımı alır,
Qanımı coşdurur, ağlımı çalır.
Dilim topuq vurur, ya da lal qalır,
Hərdən yuxularda öpürəm səni,
İgid bir oğlanam, sevirəm səni.

Gözümdən çəkilmir gözəl bənizin,
Qatilim olacaq bu eşq dənizin.
Anam çox istəyir, görsün "kəniz"in,
Başım da kantujdu..., deyirəm səni,
İgid bir oglanam, sevirəm səni.

# HARDASAN...? HARDA…?

Ey könül taxtımda fərman verənim,
Ey dərdli könlümə dərman verənim,
Gözümdə, könlümdə sevda hörənim,
Gözəllik məbədim, əlac törənim,
Hardasan?...Harda?

Naləm ərşə çıxıb, sən xəbərsizsən,
Meydan cövlan edir, sən kəhərsizsən,
Hamı yönün tapır, sən təhərsizsən,
Ağrımı duyduqca acı görənim,
Hardasan?...Harda?

Bu dünya fanidir, fanidir..., ancaq
Bildiyim budur ki, sevgi udacaq.
Bu Novruz sevənlər vəslə çatacaq,
Mənim olmayacaq vüsal törənim??
Hardasan?...Harda?

“Hə”yin, “yox”un yoxdu, qətiyyətsizsən,
Sən özünə qarşı mərhəmətsizsən.
Haqlı olammazsan, özünü üzsən,
Nə vaxt gələcəksən, necə öyrənim,
Hardasan?...Harda?

Sevdin, düşünmədən könlünü verdin,
Səninlə xoşbəxtəm, eşq nədir gördüm.
Səndən soruşmasın bəs Ağaverdin,
Mənə eşq yaşadıb, könül verənim,
Hardasan?...Harda?

# XUDAMIN EŞQİNƏ

Pərvanələr hey fırlanır yanan ağ şamın eşqinə,
O biçarə Şam da yanır iki nakamın eşqinə.

Bu cazibə nədir belə Pərvanəni Şama çəkir,
Bir cüt olmaq, bütövləşmək ruhi bir tamın eşqinə.

Çox bəlalar çəkdi başım, yazdım ömür dastanımı,
Hər cəfaya, hicrə dözdüm sehri-butamın eşqinə.

Mən nələrdən gör keçmişəm, hüzur tapsın ömür-günüm,
Bir "sevirəm" deyən dilin, bir saf kəlamın eşqinə.

Ünlülərlə təmas etdim, ülfət qurdum, yoldaş oldum,
Mən qazandım rəğbətlərin, bir xoş salamın eşqinə.

Öz işimin pərvanəsi, yanan şamı, dəlisiyəm,
Savad, ziya, zəka verdim, cahi-cəlalım eşqinə.

İntiqama susamışdım, indi dönüb dərd olmuşam,
Dərdi sinəm çəkər-çəkməz..., Əfşan balamın eşqinə.

Unuduldum deyə-deyə, yol gözləyir köç karvanım,
Zəhmətimi hədər gördüm əhli-bəlalım eşqinə.

Mömin olmaq istəyirsən, fikrin budur Ağaverdi,
Sən Quranı dərin öyrən, öyrən xudamın eşqinə.

**18.03.2021**

## BİR AZ HİCRAN YAŞA

Əllərim əlinə çatacaq...,
                                        hələ
bir az hicran yaşa, bir az qəm yaşa.
Varlığım könlündə yatacaq hələ,
Bir az sevinc yaşa, bir az dəm yaşa,
Bir az hicran yaşa, bir az qəm yaşa.

Nə edim, yanına gələ bilmirəm,
Sənsiz yaşasam da, gülə bilmirəm,
Bu həsrət bitərmi, hələ bilmirəm,
Bu qismətə qatlaş, bir az ləm yaşa,
Bir az hicran yaşa, bir az qəm yaşa.

Gözlərin gözümdə güləcək hələ,
Cismim xəyalına gələcək hələ,
Hicrin ürəyimi dələcək hələ,
Kefini bol eylə, azca kəm yaşa,
Bir az sevinc yaşa, bir az qəm yaşa.

## ÖZ DİLİMDƏDİR

Özgə dil könlümə belə yatammaz,
Xoş sözlər, kəlmələr öz dilimdədir.
Dünyanı istəsən gücüm çatammaz,
Canımı istəsən öz əlimdədir.

Çıxmaq lazım deyil axtarışına,
Məhəbbət çıxacaq bir gün qarşına.
Dönüb-dolanarsan yarın başına,
Gözəllik, məlahət öz gülündədir.

Yar ilə keçirdim ömrün azını,
Yellərə vermişəm tale yazımı.
Daha çalammıram könül sazımı,
Günahlı-günahsız yük belimdədir.

Həmişə ülfətə var ehtiyacım,
Sevinci paylaşdım, pünhandır acım.
Nə əldə etmişəm, nədir qazancım,
Dəyərim, qiymətim öz elimdədir.

Yerin, göyün sirrin yaradan bilir,
Təbii gözəllik üzümə gülür.
Bu əşrəf insandan bir şey güdülür
Gözəllik insanın əməlindədir.

Axirətdə varmı belə bir həyat,
Acısın çox çəkdim, şirindir heyhat.
Nəyə yığışmısız yenə həzərat,
Nəfəsim tükənir..., bəs ölüm nədir?

# CƏLLAD

*(Repressiyalarla bağlı rejissor Ramiz Həsənoğlunun xatirələrini dinləyərkən sarsıldım.)*

Yığdın  vaqonlara, saldın çöllərə,
"Xalqların dostluğu" budurmu cəllad.
Elin müsibəti düşdü dillərə,
"Dostluqla zülm etmək" tuturmu, cəllad.

Bu xalqın, millətin günahı nəymiş,
Hayın, ya Kobanın xətrinə dəymiş?!
Sənin də fərmanın gözdən düşərmiş,
O çöllər, səhralar yurddurmu, cəllad?

Ata yurdlarından saldın didərgin,
Sifətlər pəjmürdə,  əhvallar gərgin.
Ey xalqın "atası", nədir bu sürgün,
Verdiyin zəhər də "sudurmu", cəllad?!

Xalqı "dostluq" deyə kiridirmişsən,
Boğazda  qurğuşun əridirmişsən,
Balıq siyasəti yeridirmişsən,
İrilər xırdanı udurmu, cəllad.

Tarix də utansın, boynunu əysin,
İrsini dəfn edək, kəfənin geysin.
Sənin ədalətin başına dəysin,
Sənin ədalətin budurmu,  cəllad.

**25.01.2022**

* * *

Qurban olsun sənə canım, istəyəndə al allah.
Amma  ümid yerim yoxdur, ümid yerim ol allah.

Qoru məni bəlalardan, müxənnətin şərindən,
Qanadının altına al, çətirinə sal, allah.

Qoyma məni ümidinə pisniyyətin, nankorun,
Saflaşmağa tövbə qapın açıq olar inşallah.

Əsrlərlə yaşasa da bəs eləməz , bilirəm,
İnsana xas təbiətdir belə  niyyət, hal allah.

Ədalətin, hürriyyətin dəyişibdir məzmunu,
Yaratdığın əşrəfinə göstər düzgün yol allah.

Həyat fani olsa belə, ondan doymur  bu bəşər,
Gözəlliyi, şirinliyi şəkər, bəhməz, bal , allah.

Sevdiyiylə gün keçirmək bir nemətdir aşiqə,
Dünya elə gözəlləşir bu minvalla, maşallah.

Ağaverdi xəstələnsə, dərd olmasın kiməsə,
Yatsın, bir də heç durmasın, sağ- salamat qal, allah.

# ÖHDƏMDƏSƏN

Sən yat, mən oyağam, qoy baxım sənə,
Bizi qovuşdurdu yenə bu dövran.
Biz ayrı qalmışıq gör neçə sənə...
Gözümün önündən getmə sən bir an.

İncə barmaqların, toppuş əllərin,
Qızılı saçların, gümrah tellərin,
Bəsləmə çiçəklər, dibçək güllərin,
Gözümün önündən getməyir bir an.

Birlikdə son verək, həsrəti yenək,
Unudaq keçmişi, öndədi gerçək,
O dibçəyi boşalt, yeni gül əkək,
Gözümün önündən getmə sən bir an.

Baharın nəfəsi bizə ruh verər,
Bir vaxt pis bilinən gözəl görünər,
Gözümdən yayınma, qəlbim döyünər,
Gözümün önündən getmə sən bir an.

Sənsiz yaşamağa çatmayır səbrim,
Hətta ölsəm belə çatlayar qəbrim.
Sənsən bu Novruzda töhfəm, nəmərim,
Gözümün önündən getmə sən bir an.

Hər an gözümdəsən, düz didəmdəsən,
Özümdə, sözümdə, özgündəmdəsən,
Ağaverdi deyir, gəl, öhdəmdəsən,
Gözümün önündən getmə sən bir an.

# QARŞILAMA LAL MƏNİ

Yaman qəribsəmişəm,
Ağuşuna al məni.
Həsrətini çox çəkdim,
Laylay  kimi çal məni.

Sənsiz uzanır gecə,
Gündüz gəlmir bir vecə.
Necə ovunum, necə?
İntizardan al məni.

Çağır, çıxım önünə,
Elə baxım hüsnünə,
Könül qoyum könlünə,
Xoşlamasan, sal məni.

Sıxıntın var, bilirəm,
Arzuladın, gəlirəm.
Tənhalıqdan ölürəm...,
Üzür müşkül hal məni.

Nə edim, şən olasan?
Bir könlümü alasan.
Məmnun, razı qalasan,
Qarşılama lal məni.

Ağaverdi, var sözün...,
Sevgiylə  görsün gözün.
Sevinsin, gülsün, üzün,
Üzməsin əhval səni.

# MƏNDƏ SEVMƏK ÜÇÜN ÜRƏK QALMAYIB

Məndə sevmək üçün ürək qalmayıb,
Məndə güllə üçün kürək qalmayıb.
Axirət günü də bezibdi məndən,
Mənim ölməyimə gərək qalmayıb.

Daha yeriyəndə belim əyilir,
Daha təamlar da mənsiz yeyilir.
Süfrənin şərti də daha pozulub,
Daha sağlıqlar da mənsiz deyilir.

Hökmüm, iradəm də düşüb təpərdən,
Mən daha gəlmirəm uzaq səfərdən.
Məni qarşılamır  nə oğul, nə qız,
Əziyyət çəkirəm bir də “şəkərdən”.

Məndə sevgi üçün dözüm də yoxdur,
İş-gücüm, əməlim, sözüm də yoxdur.
Daha qocalmışam, sifət qırışıb,
Alamı, qaramı gözüm də yoxdur.

İndi mən baxıram yola, gələnə,
Bəlkə yad edənim, ya gələnim var.
Bəxtəvər deyirəm rahat ölənə,
Yazsam, sevinirəm bir  “qələmim” var.

Gözlərim yol çəkir, gələn də yoxdur,
İtirib- axtaran çətin ki, ola.
Mənim bu yaşımda övlad itirmək,
Ölümə bərabər bir şeydir, bala.

Bəxtimə küskünlük, dərd, qəm  daraşıb,
Sənin möhnətini  çəkə bilmirəm.
Dünyalar  böyükdür, məkanlar geniş
Məndən betəri var bəlkə, bilmirəm.
2004

## DÖRDLÜKLƏR

Mən necə dolanım, mən necə dönüm,
Hər gün dolanıram axı başına.
Qibləmi soruşdun, sənədir yönüm,
Axı mən çıxıram hər gün qarşına.

* * *

Mən "pullu" deyiləm, göz qamaşdırım,
Mənim kainatım-mərd uşaqlığım.
İşğal davam edir, düşüb "ildırım",
Əsirdir gəncliyim, ana torpağım.

* * *

Meylim artıbsa da giley-güzara,
Doğma yurdum üçün döyüşəm gərək.
O qədər möhtacdır dünya hüzura,
Yurdumda hüzuru bölüşəm gərək.

# MÜZƏFFƏR İLİM

İşğal günlərində yurdu boşaltdıq,
İyirmi yeddi il nisgil yaşadıq,
44 gün hərb oldu, indi rahatıq,
"Xoş gəldin !" deməkdən yorulmaz dilim,
Qarabağlı ilim, müzəffər ilim.

Didərgin həyatı yaşamışıq biz,
Möhnətə dözməklə keçib günümüz.
Çox xiffət çəkmişik hər gecə-gündüz,
"Xoş gəldin !" deməkdən yorulmaz dilim,
Qarabağlı ilim, müzəffər ilim.

Alnımız açıqdır, günümüz xoşdur,
Düşmən məhv olubdur, əlləri boşdur.
Ay aşıq, sən də gəl, aranı coşdur,
"Xoş gəldin !" deməkdən yorulmaz dilim,
Qarabağlı ilim, müzəffər ilim.

Viranə yurdumun xoşdur amacı,
Lalələr bəzəyir yalı, yamacı.
Yenidən yurd olmaq tək ehtiyacı,
"Xoş gəldin !" deməkdən yorulmaz dilim,
Qarabağlı ilim, müzəffər ilim.

Üzümüzə gülür daşı, qayası,
Qəribsəyib, dönsün keçmiş dünyası.
Yenə qayıdacaq nəcib həyası,
"Xoş gəldin !" deməkdən yorulmaz dilim,
Qarabağlı ilim, müzəffər ilim.

Görcək, unudacaq möhnət dərdini,
Yenə coşduracaq Ağaverdini.
Dünya tanıyacaq doğma kəndini,
“Xoş gəldin !” deməkdən yorulmaz dilim,
Qarabağlı ilim, müzəffər ilim.

## GEDƏN DEYİLƏM

Sən mənim ömrümə işıqsan, işıq,
Günəşin şəfəqin güdən deyiləm.
Gözə gələcəksən, bu nə yaraşıq,
Səni yalqız qoyub gedən deyiləm.

Gözüm lövbər salıb gözəl hüsnünə,
Qürrəylə baxıram qəti əzminə.
Nadir qafiyəsən şair nəzminə,
Səni yalqız qoyub gedən deyiləm.

Hərdən bəd sözlərin əzsə də məni,
Şişə qiymə-qiymə düzsə də məni.
Tərəddüdlü halın üzsə də məni,
Səni yalqız qoyub gedən deyiləm.

Qəhvəyi gözündə qonurlaşmışam,
Ağa Aqil kimi məşhurlaşmışam.
Gözündə, könlündə qərarlaşmışam,
Səni yalqız qoyub gedən deyiləm.

# TANRIMA SÖZÜM OLACAQ

Hərdən ağır olur cismimin solu,
Ürəyimdən keçir tanrının yolu.
Bu yolla gedirəm ürəyi dolu,
Mənim də tanrıma sözüm olacaq.

Çoxdan itirmişəm haqqın ucunu,
Boynuma yüklənib qəmin xurcunu.
Etiraf eləmir kimsə suçunu,
Mənim də tanrımda gözum olacaq.

Yığmışam dünyanın dərdi-sərini,
Haqqa aparacam müşküllərini.
Aşırdım şeytanın əngəllərini,
Bir yolda tanrımdan çözüm olacaq.

Haqsızlıq dönübdü həyəcanıma,
Ərz edim, baxmazsa, qıysın canıma.
Aman göstərməsə əşədanıma,
Mənim də tanrımdan üzüm olacaq.

Əlim çatan deyil, ucadır tanrım,
Uludur, lələdir, xocadır tanrım.
Gözümə görünmür buncadır tanrım,
Mənim də yanlışım, düzüm olacaq.

## MÜHARİBƏLƏRSİZ ÖMÜR

Elə bil dünyaya bir də gəlmişəm,
Bu necə duyğudu, nə əlamətdir?!
Əvvəl də sevinib, həm də gülmüşəm,
Bu fərqi yaradan nə kəramətdir?!

Bir yol bu dünyaya ağlayıb, gəldim,
Bu kərən dünyaya ölüb, gəlmişəm.
Bu kəs olmayacaq məhrumiyyətim,
Bu dəfə dünyaya gülüb, gəlmişəm.

Qaçqınlıq, kasıblıq heç olmayacaq,
Müharibələrsiz keçəcək dövür.
Bir düymə bağlayaq, bir düymə açaq,
Elə bu minvalla bitəcək ömür.

## NECƏ MÜSƏLMANSAN, NECƏ MƏMURSAN

Sən pula bu qədər niyə hərissən,
Qarğışın  bol olur... , alqış umursan.
Aldığın, yediyin haramdır axı,
Sən necə müsəlman, necə məmursan?!

Qane olammırsan məvacibinə,
Gözün dirəklənir  xalxın cibinə.
Gec-tez çevrilirsən milli çibinə,
Sən necə müsəlman, necə məmursan?!

Hörümçək toru tək "pərdə" sökülür,
İnam da, ümid də nəfsə bükülür.
Zərrə "işıq" varsa, qeybə çəkilir,
Sən necə müsəlman, necə məmursan?!

Yurda yönəlirəm, əngəl olursan,
Bir gedən varsa da, qaz tək yolursan.
Saxta təbəssümlə qəlbə dolursan,
Sən necə müsəlman, necə məmursan?

Əzrayıl yolunu kəsəcək bir gün,
İçini, çölünü gəzəcək bir gün.
O məlun  dilini üzəcək bir gün,
Sən necə müsəlman, necə məmursan?

Bu gendənmi gəlir, mümkün deyil, yox,
Babalar, nənələr, olub gözü tox.
Mühit yetişdirən acgözlər nə  çox,
Sən belə müsəlman, belə məmursan.

**01.03.2022**

# İSTƏYİRƏM

İstəyirəm gedim kəndə
bostan əkim , bağ salım.
İstəyirəm gün yandırsın,
misə dönsün camalım.

İstəyirəm uşaq olum
Həkəridə yuyunum.
İstəyirəm  körpə olum,
qığıltımla duyulum.

İstəyirəm, keçmişimə
İlkinliyə qayıdım.
İstəyirəm körpələri
mışıl-mışıl uyudum.

İİstəyirəm sevim yenə,
istəyirəm sevilim.
İstəyirəm gözəl olsun
günüm, ayım, hər ilim.

# BAYATILAR

Köynəyi ilmələdim,
Yaxamı düymələdim.
Gözünə gözüm dəydi,
Kimsəyə söyləmədin.

* * *

Köynək ilmə-ilmədi,
Sağ-sol qoşa düymədi.
Boyuna qurban olum,
Heç gözümə dəymədi.

* * *

Gün var ki, gələr-gedər,
Gün var ki, cövlan edər.
Bu gün də ZƏFƏR günü,
Dünyanı heyran edər.

* * *

Gün var ki, əsrə dəyər,
Hər zaman alar dəyər.
Gün var ömür artırar,
Gün var ki, ömrü əyər.

* * *

Gün var ki, keçib-gedib,
Gündəmi seçib, gedib.
Gün var ilıq, mülayim,
Ömrümü biçib-gedib.

* * *

Köç öz yükün düşü(r)dü,
Yad yer yamac, döşüdü.
Yurdum yağıya qaldı,
Məzlum könlüm üşüdü.

* * *

Yanmadan ağlamazlar,
Sözə bel bağlamazlar,
Gedəni yoldan etmə,
Gedəni saxlamazlar.

* * *

Ahın, nalən dağlara,
Çox yaş tökdün bağlara.
Ölənlə ölmək olmaz,
Get, sahib çıx sağlara.

* * *

Ay doğub, bürcə düşüb,
Gümanım elçi düşüb.
Sel-su torpağı yuyub,
"Kövşənim" gücə düşüb.

* * *

Mürgülü gözlərimsən,
Kəsərsiz sözlərimsən.
Içimdəki təlatüm,
Qayğılı üzlərimsən.

* * *

Dağlara tufan gəlib,
Bağlara duman gəlib.
Ey bəxt, bəxtin açılar,
Məqamdı, zaman gəlib.

* * *

Gülün tikan üstü var,
Tülkü boğan tüstü var.
Mən yarımı qoruyum...,
Pis nəzər, pis gözdü, var.

* * *

Mən aşiq, bala dərdim,
Gül əkdim, bəla dərdim.
Mən ölməsəm ölməz ki,
Öləm ki…, ölə dərdim.

## YAXŞI YOL

Bircə addım qalıb bizi ayırsın,
Sənə cansağlığı, mənə yaxşı yol.
Təhrin-töhrün belə istər duyursun,
Mənə cansağlığı, sənə yaxşı yol.

Hər şeyin təzəsin ta xoşlayırsan,
Köhnə nəyin varsa tolazlayırsan.
Məni yavaş-yavaş azarlayırsan,
Sənə cansağlığı, mənə yaxşı yol.

Üzü qara olsun pis zəmanənin,
Daha yeri yoxdur boş bəhanənin.
Nəyinə inanım bu əfsanənin,
Sənə cansağlığı, mənə yaxşı yol.

Evdə də, işdə də təzələnirsən,
Hərdən mənimlə də məzələnirsən.
Söz-sovsuz fürsətə çözələnirsən,
Sənə cansağlığı, mənə yaxşı yol.

Təzəyə "xoş gəldin", köhnə "əlvida",
Könül ver, könül al, sonda əl, vida.
Eşqim yanmalıymış bir gün bu oda...,
Sənə cansağlığı, mənə yaxşı yol.

Daha baş ağrısı, sıxıntın oldum,
Dəyişməz su kimi yığıntın oldum.
Yolunu dəyişdin, axıntın oldum,
Sənə can cansağlığı, mənə yaxşı yol.

Qayğısın düşünmə Ağaverdinin,
Özü nazın çəkər müşkül dərdinin.
Boyun oxşayacaq qısır bəxtinin,
Sənə cansağlığı, mənə yaxşı yol.

**Bakı- 08.01.2022**

## MƏHƏMMƏD, GƏL GEDƏK ƏFƏNDİLƏRƏ

Yolumuz açılır..., gəl, gedək qağa,
Bizim kənddən keçək Əfəndilərə.
Gedək, səcdə edək qara torpağa,
Baş əyək müzəffər sərkərdələrə,
Məhəmməd gəl, gedək Əfəndilərə.

Məcburi köçkünlük yaraşmır bizə,
"Salamat qal !" deyək keçmişimizə.
Bakıda son verək hər işimizə,
Məhəmməd, gəl, gedək Əfəndilərə,
Baş əyək müzəffər sərkərdələrə.

Sən məndən yaxşısan xatırlamağa,
Nə bir hədd tanıdıq, nə bir qadağa.
Gəl, gedək sarılaq orda bayrağa,
Baş əyək müzəffər sərkərdələrə,
Məhəmməd, gəl gedək Əfəndilərə.

Baş çəkək Xanlıqda məktəbimizə,
Nələr kadr verib, gör ölkəmizə.
Biz ordan başlayaq ilk işimizə,
Baş əyək müzəffər sərkərdələrə,
Qardaşım, gəl, gedək Əfəndilərə.

Daha köçkünlükdən danışmayacam,
Bu sayaq işlərə qarışmayacam.
Mən evə-eşiyə sığışmayacam,
Gəl dostum, gəl gedək Əfəndilərə,
Baş əyək müzəffər sərkərdələrə.

Bizim dostluğun da kökü ordadır,
O müqəddəs yerdə, saf məkandadır.
Azadlıq açarı komandandadır,
Baş əyək müzəffər sərkərdələrə,
Könül dostum gedək Əfəndilərə.

Sən də müsəlləhsən, Ağaverdi də,
Bu günçün ölümə sinə gərdi də...
Ali baş komandan bir öndərdi də,
Baş əyək müzəffər sərkərdələrə,
Məhəmməd gəl gedək Əfəndilərə.

## DOSTLARIN TƏBRİKİ

Yeniyetmə idik, kəsişdi yollar,
Birləşdi könüllər, birləşdi qollar.
Bitmədi arada əkilən kollar,
Ömrümün əvvəli, bu da ki sonu,
Dost olaq göndərdi ilahi onu.

Qaynadıq, qarışdıq, elmə sığındıq,
Çox tez də dostlaşdıq, ruhən yaxındıq.
Bilik çeşməsiydik, təzə "axın"dıq,
Biz razı salırdıq müəllimləri,
Onlar da sevirdi dost könülləri.

Bir gün də məktəbin həyətindəydik,
Özümüz bilmədən baş-başa dəydik.
103 çağırdılar, biz nə gündəydik,
Macərayla bitdi məktəb illəri,
Daha da coşdurdu dost könülləri.

Xəbərsiz ötürdük təhsil illərin,
Xəbərsiz qoxladıq sevgi güllərin.
Möhnət qırammadı dostluq tellərin,
Yenə birləşdirdik yeddinci onu,
Ömür vəfa edər 100 illik sonu.

Qaçqınlıq, köçkünlük..., didərgin düşdük,
O çətin illəri bir növ ötüşdük.
Az-az qarşılaşdıq, az-az görüşdük,
Geridə qoymuşuq o müşkülləri,
Bir yerə yığırıq dost könülləri.

Altı öz yanında tutubdu yeddi,
Onu gənc saxlayıb yurd məhəbbəti.
Necə  təbrik edək biz Məhəmmədi?!
Ad günün mübarək, dostlar gəliblər,
Tərif bildirməyi məqam biliblər.

Sən ey gözəl insan,  ömrün xoş olsun,
Könlün sevgi ilə, arzuyla dolsun,
Səni istəməyən saralsın-solsun,
Biz də günümüzü qoşmuşuq sənə,
Bu gün deyək-gülək, sevinsin çənə.

Əlisəfa deyir düzəldək "tini",
Abbas tələsdirir Əbdüləlini.
Sağ ol, unutmursan Ağaverdini,
Bu gün biz çıxardaq günün dadını,
Allah uca etsin gözəl adını.

**11.09.2021**

## MEHMANI  OLMUŞDUQ ƏLİSƏFANIN

Uşağa dönmüşdü yetmiş yaşlılar,
Heyranı olmuşduq dağın, havanın.
Xızı yastanında rahat bir ev var,
Mehmanı olmuşduq Əlisəfanın.

Kababı çəkirdi Abbas, Məhəmməd,
Dilləri olmuşdu şirin, şəkər, qənd.
Yadına düşmüşdü çox “məhşur” söhbət
Mehmanı olmuşduq Əlisəfanın.

Abbasın sirrini açdı- ağartdı,
Abbas dözəmmədi göz də ağartdı.
Bizi xöş keçmişə dartdı, apartdı,
Mehmanı olmuşduq Əlisəfanın.

Şeirlər dinlədik Əbdüləlidən,
Yaxa alammırdı mən tək zəlidən.
Hərdən ilişirdi o da bəridən,
Mehmanı olmuşduq Əlisəfanın.

Buğlama bişirdik quzu ətindən,
Almalı, alçalı, içdik mətindən.
Kimsə danışırdı məhəbbətindən,
Mehmanı olmuşduq Əlisəfanın.

Onun üstümüzdə minnət borcu var,
Gələr yurdumuza, bir az xərci var.
Kimin bu dostluğa ehtiyacı var,
Mehmanı olmuşduq Əlisəfanın.

Bunlar Qubadlının ağsaqqalları,
Xəlbirə dönmüşdü gənclik baharı.
Hey xatırladılar “qalmaqalları”,
Mehmanı olmuşduq Əlisəfanın.

Şeir istəmədi Ağaverdidən,
Axı nə biləydi yazıram hərdən.
Qərib görünürdü Xızıdan vətən,
Mehmanı olmuşduq Əlisəfanın.

**18.07.2021**

## BİR ƏLİMİZ YAXANDA

*(Dəyərli şairimiz Məmməd Qədirin*
*"Əlimi bərk tutun" şeiri üçün status)*

Şair Məmməd, bərk tutmuşuq, bir əlimiz yaxanda,
Şeir adlı divandasan, odur səni yaxan da.

Şairlərin yazdıqları qəndil kimi nur səpir,
Ürəklərə işıq salır qəndilləri taxanda.

"Ulduz" deyə xəstəlik var, çalış ona yoluxma,
Heç bilirsən necə olur göydən ulduz axanda.

Bir çoxları təntiyibdi şeir, söz ümmanında,
Sənin kimi üzən azdır insaf ilə baxanda.

Sözünü de, şerini yaz, xiridarlar görəcək,
Yaz yağışı sonra gəlir ildırımlar çaxanda.

Mənə qalsa, sənin imzan üslubuyla seçilir,
Ağa Aqil gör nə deyir, "Mən də varam arxanda."

**Bakı-Biləcəri-22.01.2022**

# KƏLBƏCƏR

Fürsətin fötəmi verərdi düşmən,
Zalım da var zalım..., zalım, Kəlbəcər.
Otuz il hüsnünü gizlədi məndən,
Durumum Ağdamdı, halım Kəlbəcər.

Bir  kimsə düşməsin dara, çətinə,
Kaş hamı qovuşsun səadətinə.
Bacımoğlu yetdi şəhadətinə,
Sükutum Füzuli, lalım Kəlbəcər.

Duyğusal olmuşam, gözüm nəmlidir,
Xəyalım dağınıq, fikrim qəmlidir.
Qarabağ alınıb, bu önəmlidir,
Könlüm Şuşadırsa, qolum Kəlbəcər.

Şükür yaradanın səxavətinə,
Layiqik ilahi məhəbbətinə.
Vurğunam yurdumun təbiətinə,
Yağışım Laçındır, dolum Kəlbəcər.

Dərindir dərəsi, şişdir dikləri,
Saymaqla qurtarmaz özəllikləri.
Mən necə ayırım gözəllikləri,
Sağım Zəngilandır, solum Kəlbəcər.

Əcəb seyrangahdır meşəsi, dağı,
Qızıldır, gümüşdür münbit torpağı,
Odur dalğalanır üç rəng bayrağı,
Arım Xankəndidir, balım Kəlbəcər.

Bitdi, otuz  illik ayrılıq, həsrət,
Çoxillik arzum var, edim səyahət.
Ürəyimin yükü sevgi, məhəbbət,
Keçdim Cəbrayıldan, yolum Kəlbəcər.

Soyuq dağ mehində qoy əsim..., əsim,
Dağında, düzündə bitməz həvəsim.
Murovu gəzməyə yetməz nəfəsim,
Gedim Qubadlıda qalım, Kəlbəcər.

**25.11.2020**

* * *

Eşqə mübtəla olub..., etməzmi tüğyan ürəyim,
Bəs onu ərz etməyə yetməzmi dövran, ürəyim?!

Bu qədər möhnətə ki, səbrin ilə dəva buldun,
Səlamət bir hal ilə, bitməzmi hicran ürəyim?!

Nələri dəf elədin..., nə bəlalar çəkdi başın,
Bunu təcrübə edib,  etməzmi şükran ürəyim.

Bir rahatlıq tapacaq, ol yarını xoşhal görsə,
Onunla bir yaylağa getməzmi heyran ürəyim.

Ağa Aqil kimi zat,  gör necə də aşiq olub,
Eşqini bayram edib, etməzmi cövlan ürəyim.

**25.08.2021**

# YALQIZ LALƏ

*(Goranboylu dostum Nizamın oğlu*
*İlhamla Dod dağında gəzişərkən...)*

Çıxdıq Dod dağının əkiz tayına,
Zirvədə bir lalə yalqız bitmişdi.
İstəyir yad gözdən, sanki yayına,
Çoxdan axtarırdım, "Laləm"[1] itmişdi.

Dırmaşdıq bir ara dağın belinə,
Nə gözəl yerlərə mehrin salıbdı.
Mənim Laləm dönüb lalə gülünə,
Goran torpağında yerin alıbdı.

Dağın hər tərəfi göylük, çəmənlik,
Laləni tək gördüm, içdən sızladım.
Qaragilə kolu arxa, güvənlik,
Boyunu oxşadım, yaxşı suladım.

Köksünü vermişdi xəfif küləyə,
Lalə nazlı-nazlı yırğalanırdı.
Hərdən toxunurdu quru çəliyə,
Sanki gəlişimə arxalanırdı.

Necə fəryad edim, bilmirəm axı,
Fəryadım içimdə... dünya boydadı.
İlham da danışır, öyür bu dağı,
Bilmir mən nə hayda, o nə haydadır.

---
[1] Lalə - mərhum qızımın adıdır.

## SƏN SEVDİYİN GÜN

Hərdən zəng edirəm səsini duyum,
Suallar verirsən bir yad adam tək.
Yadlığa tablaşmır əhvalım, ruhum,
Kövrək bir ürəyəm dərdim, xətam tək.

Sənə zəng edirəm, sual verirsən,
"Axı nə olubdu, nə istəyirsən?"
Mənim ki, sevgimin ünvanı sənsən,
Məndən bundan başqa nə gözləyirsən?

Bizi birləşdirən tanrı yazısı,
Bizi birləşdirən qədərimizdir.
Bizim kəbinimiz göydə kəsilib,
Ayrı keçən günlər zərərimizdir.

Sevgi dəyərlidir dəyər verənə,
Bizim həsrətimiz, inşallah, bitər.
Ölümdən betərdir hicrana dözmək,
Bir gün son verəcəm, yetər, ta yetər...

Neynim ki, tanrının rəhmi tükənib,
Mənim də məlhəmim "rəhmə" söykənib.
Bəndə xətasından usanıb allah,
İstəyim qovuşmaq, lap günü sabah.

Mən asi düşməyi yaraşdırmıram,
Aciz adamlarla soyuqdur aram.
Bərkə-boşa düşüb sağlıq dönəmim,
Allaha şükr etmək mənim önəmim.

Bəlkə bu sınaqdır, həyat sınağı,
Mənim dözümüm var, çözər qınağı.
Sənin də sınaqlı dönəmin olub,
Odur ki, sən boş ver, səbrim də dolub.

Darıxma yetəcək, intizar sona,
Doqquza dözmüşük, dözərik ona.
Xəyalım səninlə uğraşır hər an,
Zaman yenilənir, dəyişir məkan.

Ən gözəl şerimi yazmaq istədim,
Sənin ad gününə ərməğan olsun.
Sən sevdiyin gündü, səni izlədim,
Təbrik edəcəyəm, bir  məqam olsun.

## OYAN MÜDİR

Qəlbim sınan deyildi,
Sındırdın yaman müdir.
Ürək yamaq götürməz,
Sınıqdır insan, müdir,
Aman ver, aman müdir.

İşsizlik qılınc olub,
Kişilik gülünc olub.
Sözünüz güvənc olub,
Sözün unudan müdir,
Aman ver, aman müdir.

Pul hökmüran, pul ötkün,
Mərdə namərd gülən gün.
Dil gödəlib, ölən gün,
Ayıq ol, oyan müdir,
Aman ver, aman, müdir.

Ehtiyac kəsib yolu,
Muzdumuz çörək pulu.
Olmuşuq "nökər Qulu."
Halıma yanan müdir.
Aman ver, aman müdir.

Çox işləyib, az yeyək,
Buyruq güdüb, baş əyək.
Qoltuğunda böyüyək,
Böyüklük uman müdir,
Aman ver, aman müdir.

Sınmayım, ya əyilim,
Mən əyilən deyilim.
Üstünlüklə öyünün,
Utansın zaman, müdir.
Aman ver, aman..., müdir

Ağaverdi dağdı, dağ,
Ölməyibdir, sağdı, sağ.
Tanrı baxdı, sən də bax,
Üzümüzə, can müdir.
Aman ver, aman, müdir.

1994

# XEYİRXAHLIQ

Xeyirxahlıq qanda olur,
Xeyirxahlıq canda olur.
Xeyirxahlıq bilməyən kəs
Yəqin nədir qədir,  bilməz
Xeyirxahlıq sevməyən kəs
Tündməcazdı, heç sevilməz.
Xeyirxahlar bilir axı
Haram nədir, hàlal nədir?
Çox gözəldir ay qabağı,
Səxavətli cəlal nədir?
Xalq içindən çıxır onlar,
Onlar xalqın sifətidir.
Doqquz olur gözəl donlar,
Biri toxluq səbətidir.
Xeyirxahlar ad qazanıb,
Şan-şöhrətə ucalıblar,
Alnı açıq ömür sürüb,
Müdrük kimi qocalıblar.
Onlar xalqın sərvətidir,
Qədirləri artıq olsun.
Şərəf insan xislətidir,
Kaş acgözün gözü doysun.
Təmənnada pis nəfs var,
Təmənnadan uzaq olun.
Yaxşılıqda hər hədis var,
Yaxşılıqla ömür qurun.
Gözü toxluq ləyaqətdir,
Gözü toxluq dəyanətdir,
Acgöz bilməz nəfs nədir,

Acgözlük var, xəyanətdir.
Xeyir işin qədrin bilin,
Ağlayanın gözün silin.
Qayğı çəkən xeyirxahdır.
Güldürün ki, siz də gülün.
Kimsəsizə yiyə çıxın,
Nabələdin əlin sıxın.
İmkansızın əlin tutun.
Çaşıb biri? -sözün udun.
Dostum bəsdi, susduq elə,
Ülfət bağla, dostluq elə.
Sözümüzü yozduq elə,
Nə yaxşı ki, dostuq hələ.
Ey insanlar, sülhə gəlin,
Öndə tutun sayğınızı.
Ülfət olsun mərhəm, həlim,
Hey artırın qayğınızı.
Küsmüsüzsə, tez barışın.
Ulduz olun, siz sayrışın.
Xoş görülü, xoş niyyətli
Arzularla siz yarışın.
Ülfət qurun, qucaqlaşın,
Allah ilə hesablaşın,
Hər gün bir az yaxınlaşın,
Qəlbinizə insaf dolsun.
Pul qazanın, aşın, daşın,
Unutmayın "ocaq daşı"n,
Bar, bərəkət sizin olsun.

# YUXULARIM

Gördüm, sığınmışam yurdum qoynuna,
Doğma anam kimi əzizləyirsən.
Həsrətim bürünüb gəlin donuna,
Ana qucağından nə gözləyirsən.

Gördüm ki, durmuşam kəndin”Yal”ında
O dilsiz-ağızsız yola baxıram.
Gördüm, ot daşıyır qonşum dalında,
Mən də divarlara boya yaxıram.

Həkəri məcrasın kəndə yönəldib,
Nizamı pozulub, bəndin, bərənin.
Tufağı dağılıb, növrağı itib,
Bəxti qara gəlib Əyri dərənin.

Çaqqallar gəzişir dəstə halında,
Sahibsiz qara it quyruq bulayır.
Kəndimin görkəmi viran halında,
Hər evdə elə bil bayquş ulayır.

Hərdən el-obanı xatırlayıram,
Mən önəm verənəm duyğularıma.
Hərdən ötənləri yadırğayıram,
Minnətdar olacam yuxularıma.

**1999**

# GÜVƏNƏK BÜTÖVLÜK ŞÜARLARINA

Dəməyin ki, hələ dövran çatmayıb,
"Bütöv Azərbaycan şüarları"na.
Bilin ki, ayıqdır, düşmən yatmayıb,
Barınıb, göz dikib xalqın varına,
Güvənin bütövlük şüarlarına.

Bu Güney, o Quzey dedilər bizə,
Bölüb ayırdılar, bax hissə-hissə.
Düşmən yiyələndi sərvətimizə,
"Gülüstan", "Türkmənçay" çatdı karına,
Güvənək bütövlük şüarlarına.

Böyük qardaş dedik sarı ağaya,
Süfrəmizdə yer ayırdıq dığaya.
Tor qurdular, yönəltdilər qovğaya,
Unutqanlıq yetməz xalqın karına.
Güvənin bütövlük şüarlarına.

Hərdən başımıza sığal çəkdilər,
Hərdən şırımlayıb, noxud əkdilər.
Hərdən lampamıza nöyüt tökdülər,
Bel bağlamaq olmaz acgöz harına,
Güvənək bütövlük şüarlarına.

Kimə arxalandıq, aşındı, allah,
Bir-bir aşkarlandı, daşındı, allah.
Hanı möcüzəsi, naşındı allah,
Hahaq güvənmişik naşı karına,
Güvənək bütövlük şüarlarına.

İkiyə bölündük, bu azmış yəqin,
Qarabağı didir dişi düşmənin.
Acı qismətidir taleyin, bəxtin,
Birləşək, qan tutaq, acgöz harına,
Güvənək bütövlük şüarlarına.

Birliyə çağırış nə tezdi, nə gec,
Birlikdən qorxmasın nə mərd, nə bivec.
Bütövləş, a millət, bu yolu tez keç,
Bütövlük çatacaq elin karına,
Güvənək bütövlük şüarlarına.

Haqqın yolun göstər azğına, allah,
Nankora, acgözə, çaşqına allah.
Möhtacdı mərhəmət haqqına, allah,
Bəlkə bu millət də haqdan yarına,
Güvənək bütövlük şüarlarına.

Birləşin, a millət, bölündük bəsdi,
Hər şeydən məmnun tək göründük, bəsdir.
Özgə divarlara hörüldük, bəsdir,
Qardaşlıq çatacaq qardaş karına,
Güvənək bütövlük şüarlarına.

# QİYAMƏT QOPAR

Mənimdir azadlıq, mənimdir hünər,
Amma necə deyim, ixtiyar mənəm.
Neynim ki, düşmənlər bədxah düşünər.
Hələ deyəmmirəm bəxtiyar mənəm,
Axı necə deyim, ixtiyar mənəm.

Sonsuz ağrılarım, acılarım var,
Araz çay olsa da, Kürlə birləşir.
Qərib qardaşlarım, bacılarım var.
Hiss etdin ürəyim harda yerləşir?
Araz çay olsa da, Kürlə birləşir.

Düşmən fitva verdi, yarı böləndük,
Birləşə bilmirik, Araz neyləsin.
Farsa mehr saldıq, rusla öyündük,
Özgədənmi umaq kömək eyləsin,
Birləşə bilmirik, Araz neyləsin.

Almanlar birləşdi 45-cə ildə,
Üçüncü əsrdir biz yol gəlirik.
Siyasət danışır bir "başqa dil"də,
Nəyi gözləyirik? Nəyi bölürük?
Üçüncü əsrdir biz yol gəlirik.

Özün qalib sanır işğalçı düşmən,
Bir gün xalq dirəşər, qiyamət qopar.
Qoymaz gümanlara qisasın vətən,
Düşmən torpağına öz qanı hopar,
Bir gün xalq dirəşər, qiyamət qopar.

# SEVGİLİ QUMRULAR

Sevgili qumrular ayrı ötüşməz,
Ya xətər, ya əcəl çatana qədər.
Ayrılıq çəkməsin sevən könüllər,
Qumrular qəm çəkər, utanar qədər.

İlk görüş anı var könlümdə, gülür...,
Birdən yad etməsəm küsür, üzülür.
İncik baxışları elə süzülür,
Özümdən xəbərsiz yatana qədər.

"Yağış"ı kəsməmiş, gördüm "dolu"nu...,
Bu niyə incitsin eşqin qulunu...?!
Gözləyirəm pünhan olmuş yolunu,
Günəş üfüqlərdə batana qədər.

İstəyirəm xəbər tutum halından,
Üstümə nur axsın gül camalından.
Xəbərsiz olmaq nə, öz həlalımdan,
Uzansın qollarım çatına qədər.

Allahım, gün gəlsin, dəyişsin qədər,
Qısalsın yollarım çatana qədər.
Ağa, aman vermə sən ayrılığa,
Ömrünün günəşi batana qədər.

# KİŞİ elə KİŞİDİR

*(Rəşad adlı bir gənc yaşlı şairləri qınayır ki, şeirlərində elə ''köhnə kişilər'' deyib dururlar, bizə nə olub, kişi döyülük, elə biri mən və s.)*

Su tökməklə quyu çoxsulu olmaz,
Hər kəsin dövranı öz keçmişidir.
Kişinin təzəsi, köhnəsi olmaz,
Rəşad deyir : "Kişi elə kişidir."
Namus, qeyrət, mərdlik kişi işidir.

Motal papaq qoyum, qıcıq saçım mən?
Dağlarda gəzim ki, çəhlim açım mən?
Mersedesi qoyub atı çapım mən?
Kişilik yenə də kişi işidir,
Rəşad deyir : " Kişi elə kişidir."

Adi vaxtda balıq tutur, kefdədir,
Şərab içir, siqar çəkir, evdədir.
Savaş olsa, cəbhədədir, öndədir,
Şəhidlik, qazilik kişi işidir,
Rəşad deyir : "Kişi elə kişidir."

İndiki kişilər qazancın güdür,
Varlı olmaq üçün beyin "çürüdür".
Xırda-para işlər indi yerimir,
Cəbhədən xəbər var, kimin işidir?
Rəşad deyir : "Kişi elə kişidir."

İndi kişilərə nə olub Eyvaz?
Əl-qolun yelləyir hikkəli Solmaz.
Kişinin təzəsi, köhnəsi olmaz,
Bax, sən yerişinə, ər yerişidir.
Rəşad deyir :" Kişi elə kişidir."

"Yumaq", "tikiş" arvadlığın təməli,
Tikmək, qurmaq kişilərin əməli.
Qadın, kişi fərqlidirlər, deməli.
Bax, onun gəlişi bəy gəlişidir,
Rəşad deyir: "Kişi elə kişidir."

Nəciblik, incəlik, xanım-xatınlıq,
Ərinə sədaqət, qəlbə yatımlıq,
Ayrı qala bilməz onca addımlıq,
Ər-arvad allahın göndərişidir,
Rəşad deyir: "Kişi elə kişidir."

İndi kişilərə nə olub, bəyəm,
Nə ehtiyac var ki, onları öyəm.
Ay müjdə gətirən, qapımı döyən,
Ağaverdi deyir, Rəşad kişidir,
Döyüşə gedirik, kişi işidir..

## HƏRTİZ DAĞINA

Söz verdim…, gələmmədim,
Mən xiffətdən öləcəm.
Yola mina düzüblər,
Bir yol tapıb gələcəm.

İlləri yola salıb,
Gözlərin yolda qalıb.
Hüsnünü kədər alıb,
Kədərini bölləcəm.

Dövran ayırıb bizi,
Çürüdür ömrümüzü.
Kor edir gözümüzü,
Düşmən gözün dələcəm.

Görünmür yolun, izin,
Yolu yoxmu Hərtizin?
Səsi gəlmir Kəhrizin,
Əvvəl-axır biləcəm.

Barındırdın hayları,
Yola saldın çayları.
Bitmir həsrət ayları,
Bəc mən nə vaxt güləcəm?

Lalə, nərgiz bitirir,
Xustubdan qar yendirir.
Səbr-təmkin göstərir,
Göz yaşını siləcəm.

Yaman sərtdir yamacın,
Səni sevmək amacım.
Gül-çiçəyin əlacım,
Dərmək üçün gələcəm.

# QOCALIĞIM

Səyahət eyləmək keçir könlümdən,
Köməyə möhtacdır zay qocalığım.
Cavanlıq hər ömrün bəylik çağıdır,
Sök bir-bir kərpicdən, say qocalığım.

Bir quru yarpağam, meh qovur məni,
Arpa qabığıyam, gəl sovur məni.
Gəl, ay ürək dostum, gəl ovut məni,
Mənə hüzur vermir xay qocalığım.

Qurd düşə biləcək xarlanmış qaram,
Mən seçə bilmirəm, ağrıyır haram?!
Adi bir ölümlə tapılar çaram,
Biz üz-göz olmarıq day qocalığım.

Adam var, haramı cüt əllə tutur,
Haram tikələri xoş halla udur.
Bir halal udulan havadır, sudur,
Ürpənir haramsa pay qocalığım.

Zəmanənin ruhu uyuşmur mənə,
Haram şey qoymadım halal süfrəmə.
Xeyirli vətəndaş oldum ölkəmə,
İndi yararsızam, key qocalığım.

Nə gördüm-götürdüm yaxşımı, yaxşı,
Gərək sona verim hər yır-yığışı.
Narın-narın tökür ömür yağışı,
Qürub edən günəş, ay qocalığım.

Ağaverdi,  ömür çox tez ötüşdü,
Sənlə o canüzən əllə görüşdü.
Gör, qısqanc sevgilin nə günə düşdü,
Yalvarsan nə fayda,
vay..., qocalığım.

## AY İSMAYIL  GƏL

Xoş xəbər yayılıb, qulağım duyub,
İnana bilmirəm, kimsə uydurub.
Deyirdin, deyirdin haylar qudurub,
Ordum dərsin verir, gedək, buyur gəl,
Çox da oyalanma, eli duyur, gəl.

30 il gözlədik bu xoş səfəri,
Bu gün gerçəkləşib döyüş xəbəri.
Bizi çox bəsləyib Bakı şəhəri,
Mürgülü gözünə yüngül su vur, gəl,
Çox da oyalanma, eli duyur, gəl.

Hər kəs müsəlləhdir qazi olmağa,
Gəl ki, ayaq alaq viran oymağa.
Gedək, bir üz qoyum naçar torpağa,
Yarı yuxulusan, qardaş, ayıl gəl,
Bu gün gözəl gündü, ay İsmayıl, gəl.

Ali baş komandan döyüşür, qardaş,
Cəbhəyə yönəlir hər bir vətəndaş.
Bizim öhdəmizə nə düşür qardaş?
Uzaq da deyilsən, olsun Bayıl, gəl,
Bu gün gözəl gündü, ay İsmayıl, gəl.

Töhmətim yox olur, sel düşüb suça,
Sevindim, şadlandım bu gün bolluca.
Getməsəm deyəllər, “ötüşür qoca,”
Əngəlin varsa da, ondan sıyrıl, gəl,
Bu gün gözəl gündü, ay İsmayıl, gəl.

Gəl biz də yollanaq, gedək cəbhəyə,
Biz də çiyin verək hərbi əməyə.
Elimiz üz tutub, gedir köməyə,
Ağ bayraq qaldırır hay, İsmayıl gəl,
Bu gün gözəl gündü, ay İsmayıl gəl.

## GÜNÜ FACİƏ

Sən öz taleyini qara gətirdin,
Sənin həyatının sonu faciə.
Nəyi əldə etdin, nəyi itirdin,
Məni çox gec duydun, önü faciə.

Yaşaya bilmədin bir sadə həyat,
Eləcə vurnuxdun, olmadın xoşbaxt.
Günahkar deyildi zamanə o vaxt,
Atdığın addımın yönü faciə.

Bir də gileylənmə Ağaverdidən,
Pis, yaxşı seçmirdi ağlın, ya didən.
Axı nə umaydım kor bəkləntidən,
Xəbəri, gerçəyi, ünü faciə.

# OĞLUMA XİTAB

Öğlum vida etdin gənclik cağına,
Sən də salamat ol, mən də salamat.
Çalış, çox fikir ver sağlamlığına,
Sən də muğayat ol, mən də muğayat.

Ad günün mübarək, 100 yaşa oğul,
Bir dəfə ölmək yox, yüz dəfə doğul.
Adam var varlıdı, insan var yoxsul,
Sən də fəxarət ol, mən də fəxarət.

Gedək azad yurda, bir az toxtayaq,
Bir ev qaralayaq,  tonqal odlayaq.
İtin, pişiyin var, bir-bir yallayaq
Bir addım mən atsam, birin də sən at.

Mən sivil dünyanın mətini gördüm
Atalı, analı yetimi gördüm.
Doğrunu, yalanı, çətini gördüm,
Sən də farağat ol, mən də farağat.

Ad günün mübarək, hürr oğlum Anar,
Sənə kömək olsun qoy pərvərdigar.
Sən də bəxtiyar ol, mən də bəxtiyar,
Bir fişəng mən atdım, birin də sən at.

Oxumuz yayından sıyrıldı bir yol,
Mənə haqq verəssən, bir az yaşa dol.
Mən sağa çevrilsəm, sən də dayan sol,
Mən bir həyat olum, sən də bir həyat.

Bizim yollarımız ayrıldı, oğlum,
Axı məhkəmə də quruldu, oğlum.
Amallar, məqsədlər duruldu, oğlum
Sən də salavat ver, mən də salavat.

Atayam, ürəyim ümman kimidir,
Yel vursa, titrəyir orman kimidir.
Bir müşkülün olsa, sarvan kimidir,
Bir imdad mən olum, birinə sən çat.

Yazıram, el-oba tərifləyibdir,
Demə, Ağaverdi xərifləyibdir.
Soruşma, könlümə kimlər dəyibdir,
Sən də salamat ol, mən də salamat.

## GÜDÜKÇÜ BƏKIR

Yolumu gözləyir, qayğımı çəkir,
Nədən xatırlayım həyat öncəmi?!
Kölgəmi güdürdü "güdükçü Bəkir",
Mən indi tapmışam əsl zövcəmi.

Sənə yönəlirəm fikrim dönəndə,
Günəş şahə qalxıb, ay görünəndə.
Rahatca yatıram başım sinəndə,
Mən indi tapmışam hüzuru, çəmi.

Daha mənlik deyil zərəri, çəmi,
Daha mənim deyil o "batan gəmi".
Kimsə dara çəkmir daha öfkəmi,
Nə də qamçılamır qara kölgəmi.

# YEDDİ SƏSİN HİMNİ

Üzeyir bəstəsində,
Muğam əhatəsində,
Yeddı notun üstündə
Yaranır hər musiqi:
Do, re, mi, fa, sol, lya, si.
Do- si, do-si, do-si, do

Mülk yaradıb xallarla,
Marş irəli, "sol"larla,
"İldırımlı yollar"la
"Məhəbbət əfsanəsi"...
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do-si, do

"Leyli və Məcnun" yoldu,
"Min bir gecəsi" soldu.
"Şah İsmayıl" şah oldu
Musiqi salnaməsi:
Do, re, mi, fa, sol, lya, si
Do-si, do-si, do-si, do...

Nə güldür, nə də çiçək,
Gülabdır, gətir səpək,
Şərbətdir, bəlkə içək.
Nə o, nə bu, kəsəsi:
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do- si, do.

Gecənin bəyazlığı,
Gündüzün tarazlığı.
Ruhumun pərvazlığı
Musiqidir, müsiqi.
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do-si, do

Ağ rəngin yeddi yağı,
Səmanın yeddi tağı.
Yeddi rəng göy qurşağı.
Təbiət fəlsəfəsi
Musiqidir, musiqi:
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do-si, do.

Atamızın öyüdü,
Anamızın südüdür,
Ürək  döyüntüsüdür,
Bir həyat möcüzəsi,
Musiqidir, musiqi:
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do-si, do

Qarabağdır, Şuşadır,
Ömrümüzlə qoşadır,
Tarixini yaşadır...
Havalansın Xan səsi,
Qarabağ şikəstəsi.
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do-si, do.

Nəbi-Həcər sevgisi,
Koroğlunun cəngisi,
Anamın layla səsi,
İlham-Fərizə eşqi,
Musiqidir, müsiqi
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do-si,do

Doğuldum, özgür oldum.
Məcburən köçkün oldum.
Bəxtimdən küskün oldum,
Bunun yoxdur niyəsi.
Do, re, mi, fa, sol, lya, si,
Do-si, do-si, do-si, do

İşğal olunub yurdum,
Dərd-qəmlə ömrü yordum,
Əmrə müntəzir ordum
Qurtaracaq hər kəsi.
Bir qürur səlnaməsi:
Do, re, mi, fa, sol, lya, si.
Do-si, do-si, do-si, do

Xan çinarın kölgəsi,
Həkərinin gur səsi,
Sevgilimin töhfəsi...
Xoş qılığı, övkəsi...
Bitsin köç hekayəsi:
Do, re, fa, sol, lya, si,
Do-si, do-si, do-si, do.

Ağaverdi gün gələr,
Arzusun haqdan dilər.
Bayraq sancıb sevinər,
Xankənddən gələr səsi.
Qələbə, alqış səsi
Musiqidir, musiqi
Do, re, mi, fa, sol, lya, si.
Do-si, do-si, do-si, do

## EŞQİM, MƏHƏBBƏTİM, SEVGİLİM ŞUŞA



Sənin intizarın məni çox üzdü,
Zindana dönmüşdü hər ilim Şuşa.
Biz sadəlövh çıxdıq, düşmən çoxüzlü,
Nə üzüm qalmışdı, nə dilim Şuşa.

Sağaldı vətənin qarayarası,
Ağardı çöhrəmin suçu, qarası.
Ey Azərbaycanımın  şirin balası,
Şəngülüm, şüngülüm, məngülüm Şuşa.

Əsil yaraşıqsan söz ahəngimə,
Şahidlik etmisən əzəl sevgimə,
Yerin soyuq olub, gəl gir köksümə,
Bəh-bəhim, cəh-cəhim, bülbülüm Şuşa.

Ətrafa baxırsan şəldi-şəvəldi,
Sənin şöhrətinin dövranı gəldi.
Bizsiz son payızdı, bu son xəzəldi
Barım-bərəkətim, sünbülüm Şuşa.

Ağaverdi sevən gözəl diyarsan,
Qonağın olacam, uğurlayarsan.
Qubadlı elinə yola salarsan,
Eşqim, məhəbbətim, sevgilim Şuşa.

**27.11.2020**

# BİZİM VAĞZALIMIZ  ÇALINMAYACAQ

Doğmadır, tanışdır yolu bölgənin,
Birləşmək vaxtıdır qoşa kölgənin.
Ruhun mənimkidir, tənin özgənin,
Hətta istəsək də alınmayacaq,
Bizim vağzalımız  çalınmayacaq.

Bu düşmən işidir, düşmən əməli,
Zorlanmış qürurun olmaz təməli.
Toy-büsatdan keçir evlilik, bəli,
Hətta istəsək də alınmayacaq,
Bizim vağzalımız  çalınmayacaq.

Qismətin deyilmiş gəlin paltarı,
Məndən yan ötüşür bəylik vüqarı.
Qınaya bilmərəm dönük rüzgarı,
Hətta istəsək də alınmayacaq,
Bizim vağzalımız  çalınmayacaq.

Sahilsiz qalıbdır lövbərsiz gəmin,
Biz tapa bilmədik həyatın çəmin.
Bir suçun görmürəm burda kimsənin,
Hətta istəsək də alınmayacaq,
Bizim vağzalımız  çalınmayacaq.

Qoy gözündən öpüm, gülə dönəcək,
Qoy ləbindən öpüm, bala dönəcək.
Ayrılıq azmana, filə dönəcək .
Əlvida ey pəri! Əlvida... ancaq
Bizim vağzalımız çalınmayacaq.

## MƏHƏBBƏTİMİN ARDINCA

Dalğalar qoynunda haray salacam,
Dalğıcı olacam sədaqətimin.
Kimin nə işinə... ,
dərviş olacam...,
Ardınca gedəcəm məhəbbətimin.

Leylinin, Məcnunun həyatı kimi,
Dərdimi qoşacam bayatı kimi.
Gəncliyin sehirli xalatı kimi,
Ardınca gedəcəm məhəbbətimin.

Qızılgül kolunda tikan olacam,
Sürücü əlində sükan olacam.
Qızıl quşlar kimi qanad çalacam,
Ardınca gedəcəm məhəbbətimin.

Paklıq meracıdır eşqin qüsulu,
Bu yolu keçibdir Vahid, Füzuli.
Mən Ağa Aqiləm, eşqinin qulu,
Ardınca gedəcəm məhəbbətimin.

**16.03.2022**

## GÜNƏŞİN HALƏSİ SƏN

Lalə, qızım təbəssümün,
Üzülməsin, üzülməsin.
Yanağından göz yaşları
Süzülməsin, süzülməsin.

Sən sevincsən, sən fərəhsən,
Dağ etmisən arzumuzu.
"Baba" deyən xoş diləksən,
Ay ömrümün dadı-duzu.

Bəzək, düzək, yaraşıqsan,
Lalələrin laləsi sən.
Sən bir nursan, bir işıqsan,
Sən günəşin haləsisən.

Şirin, şəkər, noğul qızım,
Sən evimin dirəyisən.
Həyat eşqim, dadım, duzum,
Sən babanın ürəyisən.

## SON NAĞIL

Saygı görməyəndə sarsılır insan,
Adam incidərmi safın, doğmasın.
İçim qan ağlayır, üzüm gülsə də,
Məni itirməkdən bunlar qorxmasın.

Oğlun, qızın olsun..., nəfəsin duyma,
Onlar üçün işlə, onlara qiyma.
Xoş bir xəbər üçün gözünü qıyma,
Səni itirməkdən onlar qorxmasın.

Qayğı da, sevgi də olurdu..., gec-gec,
Ondan artığını özləmirdim heç.
Bu cür sayğısızlıq gözləmirdim heç,
Məni itirməkdən onlar qorxmasın.

Mən əldən-ayağa qalmamışam ki,
Keçəlin başını "yolmamışam ki".
Bu qədər dəyərsiz olmamışam ki,
Məni itirməkdən onlar qorxmasın.

Həmişə çəkmişəm qayğılarını,
Hörmətli tutmuşam duyğularını.
Çox heyif..., görmürəm sayğılarını,
Məni itirməkdən onlar qorxmasın.

Susuz dəyirmana arxmı çəkiblər?!
Ruhuma, duyğuma sanki çöküblər.
Sayğısız olmaqda kimə çəkiblər,
Məni itirməkdən onlar qorxmasın.

Bu bir röya imiş, alır ağlımı,
İndi açıqlayım gizli-saxlımı.
Bu gün danışıram son nağılımı...,
Məni itirməkdən onlar qorxmasın.

## BİRCƏ ÇATIM İLİNƏ

Xəstə ürəyimin qayğısın çəkdin,
Qurban olum "Ata!" deyən dilinə.
Bağrımın başında qərənfil əkdin,
Mən dönmüşəm məzar üstü gülünə.

Zərər verdin gözlərinin yağına,
Təhsil alıb qoşulmuşdun axına.
Necə oldu bəs buraxdın yaxına,
Niyə uydun riyakarın felinə.

Indi qızın gözümüzün ağıdı,
Qarasıdı, didəsidi, yağıdı.
O nankorun çox urvatsız çağıdı,
Qurban olsun torpağına, külünə.

Indi qızın üzü üstə hey yatır,
Bir naz-qəmzə, şirin-şəkər dil "satır".
Dərdimizə az da olsa tam qatır,
Qurban olum dərdə əncam "gülün"ə.

Balan olub bizə həyan, aşina,
Uzun kiprik çox yaraşır qaşına.
Hər gün sığal çəkirik biz başına,
Oxşadırıq sığal çəkən əlinə.

Günah yazma yara almış atana,
Aciz ata günahına batana.
Balan ilə dincələnə, yatana,
Arzum budur bircə çatım ilinə,
Qurban olum "Ata!" deyən dilinə.

**19.09.2004**

# İKİNCİ EŞQ NAĞILI

Uyardı anasını,
Şahid xudmani  evdi.
Tanıtdı sonasını,
Gözəl Mələyi sevdi.

Ayrılığı göz aldı,
Əsgər yazıldı gizlin.
Döyüşlərə yol aldı,
Nə bildiriş, nə izn.

Anasın çox istərdi,
Ancaq vətəni seçdi.
"Gözdüsü"n sevən ərdi,
Torpaqdan kəfən biçdi.

Qisasını çox aldı,
İgid oldu, ər oldu.
Silahına sarıldı,
Qalib, müzəffər oldu.

Özü qayıdammadı
Cənazəsi qayıtdı.
Axı şəhiddir adı,
Bütün kəndi ayıltdı.

Mələk etdi intihar,
Fərizə gerçəyimiz.
Cənnətdə qovuşdular,
Mehdiylə Mələyimiz.

Örnək sevgimiz vardı,
İlham-Fərizə eşqi.
Eşqin sadiqlik ardı
Mehdi, Mələk və eşqi.

Bir əsər də yarandı,
İkinci eşq nağıllı.
Saf sevgiyə ünvandı,
Tərtərdə Sarıcallı[1].

**13.12.2020**

---

[1] Tərtər rayonunun Sarıcallı kəndinin şəhidi Mehdini dəfn edib qayıtdıqda məlum olub ki, nişanlısı Mələk intihar edib. Məktubunda yazıb ki, "Mən Mehdisiz yaşaya bilməzdim."

# BU BİZİM ELLƏRİN ZƏMZƏM SUYUDU

*(İsmayıl bəy kəndləri Keçikliyə gedib və dostlarına da pay gətirmişdi.)*

Dostum Zəngilandan su gətirmişdi,
Üç yüz otuz qram..., payım buyuydu.
Allah qismətimə dad yetirmişdi,
Bu bizim ellərin zəm-zəm suyuydu.

İçdim qurtum-qurtum, nəfəs dərərək,
Bu arzum çökmüşdü uyğularıma.
Dostum kövrəlmişdi məni görərək,
Qəhər yansımışdı duyğularıma.

İ(yi)rmi yeddi illik intizar bitdi,
Tumurcuq veribdi arzularımız.
Qaçqının, köçkünün düzəlib qəddi,
Bülbüllər olubdu bəstəkarımız.

Üç yüz otuz qram  adi suyuydu,
Dilimin cadarın hamarlayırdı.
Bu necə hiss idi, necə duyğuydu,
Bütün varlığımı tumarlayırdı.

Gərək mən də gedim, köküm bulağa,
Hey içim, söndürüm susuzluğumu.
Yurdumun həsrətin gömüb torpağa,
Bir az canlandırım kövrək duyğumu.

**19.01.2021**

## SƏNİ BAŞQA TÜRLÜ ÇÖZƏMMİRƏM Kİ

Səni misra-misra yığdım bəndlərə,
Səni başqa türlü bəzəmirəm ki.
Sənin gözəlliyin gözümün işi,
Səni başqa türlü çözəmmirəm ki.

Gözümdə, könlümdə pirsən, əzəlsən,
Bir Kürdü - şahnazsan, məhşur qəzəlsən.
Kirşansız, sürməsiz daha gözəlsən,
Gözümü çöhrəndən üzəmmirəm ki.

Allahım, qismətim yazından gəlir,
Aşığın avazı sazından gəlir.
Sənin qəmzələrin nazından gəlir,
Sənin sükutuna dözəmmirəm ki.

Ağaverdi yenə giley gəzirsən,
Şükr elə tanrına, payla nəzir sən.
Açıqla, elan et, onu sevirsən,
De ki, bu sirr ilə gəzəmmirəm ki.

**31.12.2021**



## GÜL ƏTİRLİM, AY ÜZLÜM

Gözlərimə naxış salıb baxışın,
Xoş niyyətlim, saf ürəklim, xoş sözlüm.
Gözüm tutub gözlərinin axışın,
Gül ətirlim, ceyran gözlüm, ay üzlüm.

Sevgim lalmış, dar sinəmdə xışıldar,
Məmnun halın baxışından mışıldar.
Qara gözlər ağ bənizdə işıldar,
Gül ətirlim, ceyran gözlüm, ay üzlüm.

İncə xalın yanağının laləsi,
Ayparədir qaşlarının haləsi.
Sevgi səpir həsrətinin naləsi,
Gül ətirlim, ceyran gözlüm, ay üzlüm.

Sevən aşiq gözəlliyi duymazmı,
Bu gözəllik önündəcə uymazmı?!
Canın istə, qurban desin..., qıymazmı,
Çül ətirlim, ceyran gözlüm, ay üzlüm?!

Bu məhəbbət, bu eşq ki var, uludur,
Qəmli könlüm intizarla doludur.
Ağaverdi qocalmayıb, suludur,
Gül ətirlim, ceyran gözlüm, ay üzlüm.

**01.02.2020.**

## O BALACA KİŞİDİR

Balamın balasıdır,
Könlümün nəvasıdır.
Əylənirik birlikdə,
Dərdimin dəvasıdır.

Fərid sevir babasın,
Axı alır qadasın.
Baba çəkir nazını,
Bağışlayır xatasın.

Can deyirəm canlanır,
Sözə baxmır, danlanır.
Meyillidir davaya,
Bu üzdən yamanlanır.

O çox sevir atasın,
Eşitdimi sədasın...,
Qüvvət alır..., güc alır...,
Dəyişdirir ədasın.

Dükandan çörək alır,
Toyuğu hinə salır.
Sulayır bağımızı,
Dərin xəyala dalır.

Qar üstə salıb ləpir,
Sərçələrə dən səpir.
"Zəhmətkeş" oğlandır o,
Hərdən bağda yer "təpir".

Mən nə desəm eşidir,
Bu bir könül işidir.
Sözündən dönən deyil,
O balaca kişidir.

# CUPPULU XANIM

Evimizin şirnisi,
Məktəbin birincisi.
Mənim gözüm, işığım,
Atasının incisi.

Bu kim olar deyincə,
O büründü sevincə.
Tez sarıldı boynuma,
Könlü gözəl, dil incə.

Hər gün dərsin öyrənir,
Heç vaxt salmır səs - səmir.
Həkim olsa, nə dərdim,
Sən kömək ol, ya səbir.

BSQ-dən yüz alır,
Müəllim razı qalır.
Musiqini öyrənir,
Pianinoda çalır.

Çox sevir gəlinciyin,
Onda tapır dincliyin.
Laylay deyir ninniyə,
Bölüşür "dəcəlliyin".

Xatırladır arını,
Düzür kitablarını.
Sanki güldür, çiçəkdir,
O toplayır barını.

O bizim Laləmizdir,
Xəzrimiz, jaləmizdir.
Xöşbəxtlik iksirimiz,
Günəşli haləmizdir.

Lalə mənim canımdır,
Nəfəsimdir, qanımdır.
İş buyursam yorulmur,
O cuppulu xanımdır.

**20.02.2020.**

## ƏLVİDA SÖYLƏDİ

Sevgiylə yaşadım ötən ömrümü,
Sevgisiz quruca hay-həşirəm mən.
Şeir yazmayanda tez qocalıram,
Hər şeir yazanda gəncləşirəm mən.

Yenə mürgüləyir ilhamım, təbim,
Məni məşğul edir şəkərim, həbim.
Bir az bəhanəm var, bir az səbəbim,
Səbəbim artdıqca sərtləşirəm mən.

İnsan dözümlüdür öyrəşir dərdə,
Təsəllisin tapır hərdən kədərdə.
Hər çabam, zəhmətim getsə hədər də,
Dərdlərin özüylə dərdləşirəm mən.

Hərdən də sevincim coşur, çağlayır.
Bu gözəl dünyaya ruhən bağlayır.

Bir məsum qaragöz ürək dağlayır,
Örkən tək dolanıb bəndləşirəm mən.

“Əlvida!” söylədi küsəyən gözəl,
Əlacsız qalıbdı zavallı göz, əl.
Ağaverdi tələs, get görüş özəl,
De ki, yoxluğunla şərtləşirəm mən.

**05.03.2021**

## QƏHVƏYİ GÖZLƏR

“Qaragözlüm” dedim incidi məndən,
Anlaya bilmədim, nədir istəyi?
Göstərdi, yazılır vəsiqəmizdə,
Mən qonur gözlüyəm, o da qəhvəyi.

“O qəhvəyi gözlər, qəhvəyi gözlər”,
Yazıb vəsf edirəm, sevinsin üzlər.
Qoy çiçəklər açsın, rəng alsın düzlər,
Mən qonur gözlüyəm, o da qəhvəyi.

“Qəhvəyi göz” desəm yatmır dilimə,
Bir sevgi yükü var, yıxıb belimə.
Qəhvəyi rəng çəkdim məzlum könlümə,
Mən qonur gözlüyəm, o da qəhvəyi.

Àğaverdi, sən də zəngini dəyiş,
Qara telefonun rəngini dəyiş.
Halına fikir ver, dəngəni dəyiş.
Sən qonur gözlüsən, o da qəhvəyi.

**08.03.2021**

## “SOYUQ”

Əllərın soyuqdu mənzilin kimi,
Ruhun soyuqlayıb, kal səsin soyuq.
İliyin, sümüyün, öz əlin kimi,
Qayğın, nəvazişin, nəfəsin soyuq.

Sayğın, sevgilərin ehtiras imiş,
Qayğıma, sevgımə su əndərirmiş.
O gündən bu günə..., bura qədərmiş,
Ölçülü- biçili, həvəsin soyuq.

Başa düşüləndir yarımçıq ömür,
Yarımçıq sevginin anlamı nədir?!
Sən orda bitirsən..., ehtiras bitir...,
Ağuşum bildiyim qəfəsin soyuq.

Eşqinin corabı sökülüb, yama,
Nə deyim bu eşqə, belə zamana...
Deyirlər keçəni unut, qınama,
Yaman nəs danışdın, hər nəsin soyuq.

Xurmalar payızda yarpağın tökür,
Vaxt gəlib, ayrılıq hücrəmə çökür.
Kəsir hüceyrəmi, içimi sökür,
Qışımda oyanan “gəvgəzin” soyuq.

Ağaverdi, yenə təlatümün var,
Saf eşqin, saf sevğin özün haraylar.
Gözündən düşübdü billur saraylar,
Qış hələ gəlməyib, payızın soyuq.

**09.03.2021.**

# ŞƏHİD SONASI

Təmkinlə danışır, ufallı biri,
Gizli-gizli, için-için ağlayır.
İnsanlar ölürmüş, lap diri-diri,
Gözünün yaşını gözdə  saxlayır.

Teymur Abbasovun gözəl sonası,
Bir də doqquz yaşlı oğul balası.

“Mən xoşbəxtliyimi məzara gömdüm,
Bir qadın olaraq o andan söndüm.
Övladları üçün məcburam, döndüm.”,
Hər sözü-söhbəti sinə dağlayır.

Deyir diri ikən “ölü” sonası,
Yolunu gözləyir şəhid balası.

“Allahdan iznin al, zəng elə ata,
Sənin komandirin allahdır orda.
Atalar zəng etsin hərdən övlada.”
Arzusun allaha belə bağlayır....

Teymur Abbasovun Fehruz balası...,
Onu əzizləyir şəhid sonası.

“Allahım bircə yol görüm atamı....,
Heyif ki, eşitmir allah adamı.
Kimsə almayacaq daha qadamı.”
Bu sözlər, kəlmələr könül oxlayır.

Zəkidir, mətindir şəhid balası,
Belə yetişdirib məğrur anası.

İnamdı, imandı, qurandı torpaq,
Şəhid olan varsa, torpaq kəfəndir.
Şəhidin qanıyla sulandı torpaq,
Vətəndir, vətəndir, torpaq vətəndir.

**30.12.2020**

## SƏNSƏ ETİNASIZ ...

Üzümə baxmırsan cavanam, ərəm,
Baxmırsan..., baxsan da, çəpəki, qıyıq.
Bilsən həsrətini necə çəkirəm....,
Sənsə etinasız, soyuqsan, soyuq.

Günəş də hüsnünü gizləmir, açır,
Güllər də ətrini saxlamır, saçır.
Pərvanə şam üçün can atır, uçur,
Sənsə etinasız, soyuqsan, soyuq.

Gülü güldən etmə, suyu çəməndən,
Anasın tanıyır körpə əməndən.
Qəhvəyi gözünü gizləmə məndən,
Niyə etinasız, soyuqsan, soyuq?

İstərdim mən duyum hər qılığını,
Ən əvvəl mən görüm çılğınlığını.
Gizlətmə, bəyan et qırğınlığını,
Guya etinasız, soyuqsan, soyuq.

İntizarda qoyma Ağaverdini,
Söylə, biz də bilək gizli dərdini.
Pünhan saxladıqca məhəbbətini,
Nə etsən mənasız..., soyuqsan, soyuq.

**12.03.2021**

## BİR GÜLMÜŞ ANAM

Hər bir şıltağıma anam dözərmiş,
Tikanı olmayan bir gülmüş anam.
İməkləsəm, mənlə hər vaxt gəzərmiş,
Analıq cəbrində yoğrulmuş anam.

Sözü çeynənməzdi, hökmü çoxudu,
Qəlbi geniş idi, gözü toxudu.
Onun sevgisində ölçü yoxudu,
Kim deyə bilər ki, yoxsulmuş anam.

Bir dız-dız, ağlağan körpə olmuşam,
Başım sığallanıb, saçın yolmuşam.
Südün əmə-əmə yaşa dolmuşam,
Hər gün laylay deyən bülbülmüş anam.

Mən xəstələnmişəm, qayğımı çəkib,
Adıma həyətdə bir ağac əkib .
Divara quaşla şəklimi çəkib,
Rəssammış, bağbanmış, nağılmış anam.

Bizim ailənin çox olub üzvü,
Virusa yoluxub azalıb düzü.
Gör nələr yaşayıb, nə görüb gözü,
Ağrımış, yıpranmış, dağılmış anam.

Mən cılız olmuşam, əsib üstümdə,
Qarışıb, közə dönüb "od" və "tüstüm"də.
Ərköyün olsam da hər öyüdündə
Səbrli, təmkinli ahılmış anam.

Dərsimi oxusam, öyərdi məni,
Sözünə baxmasam, döyərdi məni.
Həm öydü, həm döydü, göyərtdi məni,
Aqilmiş, kamilmış, ağılmış anam.

İkimiz yığardıq fındığı, qozu,
Canıma hopubdu əlinin duzu.
Gedib təmizlərdim arxı, hovuzu,
Mən "dalğa" yaratsam, sahilmiş anam.

Məndən bəhs edərmiş müəllimlərim,
Əskik eləməzdi sevgi nəzərin.
Ali təhsil aldım, öpdüm gözlərin,
Mənimlə fəxr edib, bayılmış anam.

Təhsil illərində onu özlədim,
Mən kəndə qayıtdım, ömrün izlədim.
Qulluğunda durdum, yolun "gözlə"dim,
Könlümün sevinci, balıymış anam.

Alıb nəvələrin gəzərdi bağı
Üzün nur alardı o axşam çağı.
Ən çox da sevərdi nadinc şıltağı,
Onsuz hər gününü sayırmuş anam.

Hərdən süsləyərdi gözü hüsnümü,
De bir yol qaş çatıb, dodaq büzdümü?!
Hərdən təmizlərdi, hətta üstümü,
Ömrümün ən gözəl halıymış anam.

Yurddan ayrı düşüb, gəldik Bakıya,
Köçkün kimi dözdük ağrı-acıya.
Çox az qulluq etdik ana, bacıya
Bir gördüm gözümdən sıyrılmış anam.

Sevgiylə, ilgiylə keçərdi aylar,
Nisgilli ürəyim onu haraylar.
Birləşdiyi yerdən ayrılar çaylar,
Köç edib, dünyamdan ayrılmış anam.

İndi Ağaverdi babadır, baba,
Ötüb-keçənləri o salır yada.
Anadan üstün şey nə var dünyada,
Dadlıymış, şirinmiş, ñoğulmuş anam.

# Ş Ü K Ü R

Qarşıma nə yaxşı bu gözəl çıxıb,
Fəhmimə, dərkimə, ərkimə şükür.
Fikrimi bildirdim, köksümə sıxıb,
İlahimə şükür, rəbbimə şükür.

Sevgini yaradan ürəkdir, qəlbdir,
Sevgisiz bir ürək qurudur, qəlpdir.
Sevib- sevilməmək  acı bir həbdir,
İlahimə şükür, rəbbimə şükür.

Hörmətlə, izzətlə keçir günümüz,
İşıqlı gələcək, nurlü önümüz.
Sevgi, məhəbbətdir bizim himnimiz,
İlahimə şükür, rəbbimə şükür..

Sağlam yöntəminə çıraq tuturam,
Səhvin bağışlayır, tavrın uduram.
Qayğımı çox çəkir, "qoymur oturam"...
İlahimə şükür..., rəbbimə şükür.

Ağaverdi, sən də cızıqdan çıxma,
Çətini, müşkülü üstünə yıxma.
Nə qədər əzizdir, o qədər doğma,
İlahimə şükür, rəbbimə şükür.

**15.03.2021**

# ŞEİRİMLƏ DÖYƏCƏM

Qara rəngin qara üzün yaz..., durma,
Ağ rəngləri qaralamaq düz deyil.
Qaraları yan-yan düzüb, çığırma,
Qara xalla öyünən üz üz deyil?!

Yurdum, kəndim düşmənlərdə olanda,
And içmişəm, tutacağam sözümü:
"Kimsə bir gün o torpağı alanda,
Gərək olsa, verəcəyəm gözümü."

Yenilmişdi, kiçilmişdi qürurum,
44 gündə 144 il böyüdüm.
Bəs tərif etməyim, necə duyurum ,
Sevindim, şükr etdim..., amma söyüldüm.

Yanıltmac qoşmusan doğru fikrimə,
Mənim amacımın nəyi var əyri.
Kipriyimin tükü çönüb ilginə,
Gözündə görmürsən o boyda tiri.

Səviyyəsiz düşünənlər, əlvida...,
Daha sizin yanınızda durmaram.
İsti nəfəs əridəcək buzu da,
Yıxılana heç vaxt balta vurmaram.

Məmnunluğum, şükranlığım azalmaz,
Kişiləri kişi kimi öyəcəm.
Zaman keçər, dil yarası sağalmaz,
Nadanları şeirimlə "döyəcəm".

**02.04.2021**

# İNSANSIZ KEÇİNƏR BU DÜNYA, BİLİM?!

Qulaqlarım duyur hər həqiqəti,
Gözüm yaxşı seçir xoş təbiəti.
Dərk etmək istərəm dövrü, həyatı,
Fəth etmək çətindir bu kainatı.

Hardasan, ey mənim ilahi eşqim,
Səndən mənа alır bu həyat məşqim.
Zaman dəyişdikcə məzmun alıram,
Mükəmməl nizama heyran qalıram.

Ölüm yaradanın məqamındadır,
Bu yer də, bu göy də amanındadır.
İnsan var allahlıq keçir könlündən,
Nədən xəbərsizdir öz ölümündən?!

Niyə bu insanı muxtar yaratdın,
Haqlımı, haqsızmı üstünə atdın.
İnsanlıq dövr edib əzazilliyə,
Niyə belə etdin, ilahim, niyə?

Dərk etmək istəmir zəkam, şüurum,
Nə qədər müşkül var, hansın duyurum!?
Sirrin,   hikmətindir bəlkə qüsurun?
Bir gün qismət olar hüsnün, hüzurun.

Adam var, bu dünya kiçikdir ona,
Ağalığı üçün girir min dona.
Hiyləgər hiyləylə çatır mənsəbə,
Məmur xidmət etmir doğru məzhəbə.

Bir insan acından köpüyün qusur,
Biri pələng minir, arvadın busur.
Biri çörək nədir, tapmır onu da
Yaratdın hər cürün, budur sonu da.

Erməniyə silah satır, bir riya,
Satır pulun almır, budur Rusiya.
Bizə silah satır ikiqatına,
Silah pulsuz düşür Ermənistana.

Riyalar bürüyüb bütün dünyanı,
Ondanmı, göndərdin pandemiyanı?!
Məxluqu məhv edir qorxulu ölüm,
İnsansız keçinər bu dünya, bilim?!



## NƏSİMİYƏ NƏZİRƏ

Mən necə ağrımayım, öz canımdan can ayrılıb,
Bədəndən ruhum çıxıb, damarımdan qan ayrılıb.

Bəy-xan tək yeriyərdim, qəddi-qamət göstərərdim,
Həvəsdən lap düşmüşəm, iç dünyamdan xan ayrılıb.

Tapşırıb əzizimi  bu torpağa, yanar dağa,
Dönürəm əzəl yurda , köç karvanım yan ayrılıb.

Daim duyğulanıram, bilinmir gecəm, gündüzüm,
Zamanı yadırğamışam, nə vaxtdır dan ayrılıb .

Qayğımı çəkir, baxır, borcluyam dilbərimə,
İşlək ana arı tək bal süzür, şan - şan ayrılıb.

Röyada gördüklərin çin olacaq Ağaverdi,
Bölünüb İran yarı, can Azərbaycan ayrılıb.
**17.04.2021**

## MƏNİ BİR MEH YIXAR...

Gözüm yolda qalır, qulağım səsdə,
Lal axına qarşı axma, əzizim.
Gör, mən nə haydayam, sən nə həvəsdə,
Sən bir də səfərə çıxma, əzizim.

Zəndinə, zikrinə, bəxtinə əhsən,
Könlümdə qurduğun təxtinə əhsən.
Yenicə qoyduğun  nırxına əhsən,
Heç zaman könlünü sıxma, əzizim.

İsti intizarın buzam, əridir,
Sifət misə dönür, nazik dəridir.
Elə xəstəyəm ki, üzüm bəridir...
Sən də mərhəmət et, yıxma, əzizim.

Bəxtim üzə gülmür, məndən əyibdir,
Ruhum can çəkişir, kəfən geyibdir.
Sanki ayrılığın mehi dəyibdir,
Məni bir meh yıxar..., baxma, əzizim.
**24.03.2021**

* * *

Nə əkmişəm cücərib,  ana torpaq oyanıb,
Dərə, təpə yenə də  yamyaşıla boyanıb.

Keçəl gəzir, qodu da göz oxşayan geyimdə,
İlk bahar da xoş gəlib..., qapımızda dayanıb.

Günəşin şəfəqləri nazlı gəlin sayağı,
Sifətim allanıbdı,  boyun-boğaz az yanıb.

Hər fəsildə başımı uca tutub gəzəcəm,
Düşməni susdurmuşuq, vüqar boyum uzanıb.

Dualar xətm edəcəm şəhidlərin ruhuna,
Mən Aslanov Teymuru[1]  yada salıb və anıb.

Qalib, müzəffər olub əsgərimiz, qazimiz ,
Düşmənimiz bizimlə hesablaşır, ta qanıb.

Qələbəylə fəxr edir gəlinimiz, qızımız,
Əsgərimiz onların güvəncinə boyanıb.

Həm safdı, həm incədi vətənimin gözəli,
Onun da sevgisini Ağaverdi qazanıb.

[1] Aslanov Teymur kəndimizin ikinci şəhididir, bacım oğludur.

# DƏLİ KÖNÜL

Dəli könül, dəliliyin tutmasın,
Sən bu eşqin naz gölündə üzgünən.
Çalış, könlün eşq sitəmin dadmasın,
Eşq bağının gül-çiçəyin üzgünən.

Çiçək açıb kəndimizdə yal-yamac,
Əhd etmişik Yallı gedək, dolanbac.
Dolanardıq, qalmayıbdı bir ağac,
Gördüm ağac kötüklərin..., üzgünəm.

Sən qəbul et kəndin hayın, huyun da,
Üzünü yu Həkərinin suyunda.
Şənlənərik bu elin hər toyunda,
Bu kəndi sev, şəhərdən əl üzgünən.

Hənirtimi eşitdimi, ayılar,
Hər günümüz bal ayından sayılar.
Nəbzim artar, hicran gözüm oyular,
Ləbindən öp, oğrun- oğrun süzgünən.

Elə etmə, cəfa bulsun, yaşasın.
Xəstə ürək şəfa bulsun, yaşasın.
Fani ömür səfa bulsun, yaşasın,
Sevgi ömrün xoş gün, xoş gün düzgünən.

Düşmən məğlub olub, tonqal qalansın,
Ad çəkmirəm, ürəyimiz  bulansın.
Alça yoxdur, dodağımız sulansın,
Bas bağrına, üz-gözünü büzgünən.

Boş bağımız ağaclarla dolacaq,
Hər nə əksək, bir əfsanə olacaq.
Düşmən görüb, köks ötürüb, solacaq,
Ağaverdi müşkülləri çözgünən.

## İNSAN

Beşikdən məzara başlanır adam,
Öyrənə-öyrənə yaşlanır adam.
Dərdi çox, səri az, yaş yanır adam,
O insandır...

Sözlü-söhbətlidir, nəğməkardır o,
Düzür, qoşur, çalır, bəstəkardır o.
Həyatın əşrəfi, fədakardır o,
O insandır...

Zamanı qabaqla, vaxtı girovla,
Gününü keçirmə yersiz söz-sovla,
Bir başa sığal çək, bir ürək ovla,
O insandır....

Tifilə sahib çıx, yaşamın saxla,
Şəhidə, xəstəyə, naçara ağla,
Ya bir imkansızın borcunu bağla,
O insandır...

Hərtizdən baxacam, dincəlsin gözüm,
Bayatı çəkəcəm, boy atsın sözüm.

Açılsın ayna tək sərtləşmiş üzüm,
O insandır...

Ən üstün dəyərdir vəfalıdısa,
Loğmandır, həkimdir şəfalıdısa.
Qəzəldir, muğamdır əhvallıdısa,
O insandır.

Nadir avazı var Seyidin,  Xanın,
Müğam dünyasıdır gözəl Şuşanın.
O cür səs eşitsəz, bir az dayanın,
O insandır...

Dədə Süleymanın ömrün varaqla,
Nəbinin, Həcərin dövrün soraqla.
Haqsıza divan qur, hökmün ver haqla,
O insandır...

Çox möhtəşəm ildir ZƏFƏR-in ili,
Leylidir, Məcnundur sevginin dili,
Necə dilləndirim zərif könülü...,
O insandır...

Çox müşküllər gördü Ağaverdi də,
O bir könül sevdi, könül verdi də.
O comərd kişidir, yurdsevərdi də,
O insandır....

**03.04.2021.**

# İNSAN DEYİL, ƏSLA....

Fəqirə, yoxsula pis əl qaldıran,
Kimsəsiz cocuğa qəfil saldıran,
Zorun qarşısında səsin aldıran,
İnsan deyil, əsla....

Qayğıdan, ülfətdən yoxdur xəbəri,
Sevgiyə, dostluğa qatar zəhəri.
Altını üstünə vurar şəhəri,
İnsan deyil, əsla...

Geniş süfrə açar ucuz qeybətə,
Ayaq altın qazıb, çatar hörmətə.
Zavalllı insanı salar minnətə,
İnsan deyil, əsla...

Namərd ola-ola mərdi qandırar,
Min yuva uçurar, ürək yandırar.
Əcaib işlərlə qanı dondurar,
İnsan deyil, əsla...

Düşmənə çevrilir xain xisləti,
Bu da tamamlamır qaloş sifəti.
Sən ondan gözləmə abrı, izzəti
İnsan deyil, əsla...

Adam olmağına adamdı, amma,
Hər sözün, söhbətin ciddiyə alma.
Ona oyalanıb işindən qalma,
İnsan deyil, əsla...

Şeytanı aldadıb çaya götürər,
Həm susuz aparıb, susuz gətirər.
Sonra papış tikib çölə ötürər,
İnsan deyil, əsla....

Qurd qoyunla gəzər şeytan olmasa,
Adam şeytan olur insan olmasa.
Haylar da qudurur yumruq almasa,
İnsan deyil, əsla...

Əlindən nə gəlir? Nəsihət? Verdin.
Adamın  iblisin, dağalın gördün.
Tərbiyə eyləmək olmasın dərdin,
İnsan deyil, əsla...

**22.04.2021**

## AY ARİZ

Ariz[1], niyə batıb səsin-sorağın,
Boğaza yığıldıq biz özləməkdən.
Bizə lazım deyil zoğal arağın,
Gözümüz saraldı yol gözləməkdən.

Sən kimlə, nə ilə ilgilənirsən?
Subay qaldın..., bəlkə güzgülənirsən?!
Hərdən Səməd kimi tüstülənirsən,
Gözümüz saraldı yol gözləməkdən.



[1] Ariz, Gündüz və Səməd iş yoldaşlarım olub. Səməd tez-tez tüsüm təpəmdən çıxırdı cümləsini tez-tez işlədərdi.

Gəlib çıxacağın gün olacaqmı,
Novxanı bağında gün doğacaqmı?!
Gündüz qağam səni bir “ boğacaqmı”?
Gözümüz saraldı yol gözləməkdən.

Gəl ki, tıqqıldasın istəkanımız,
Bir gözəllik tapsın həspi- halımız.
Düzəlsin tinimiz, dəm əhvalımız,
Gözümüz saraldı yol gözləməkdən.

Vallahi- billahi hirslənəcəyik,
Bir gün gözlərindən  gizlənəcəyik.
Sənin acığına keflənəcəyik,
Gözümüz saraldı yol gözləməkdən.

Bilirsən, biz sənsiz aram olmarıq,
Deyib-gülsək belə, məmnun qalmarıq.
İnan, gəlib-çıxsan dava salmarıq,
Gözümüz saraldı yol gözləməkdən.

Qağamın gözləri qallbdı yolda,
Şahzadə xanımdan alıbdı “qol” da.
Korona tutmusan bu qalmaqalda,
Gözümüz saraldı yol gözləməkdən.

Ağaverdi sizi düz yola çəkir,
Ya ortaq ol bizə, ya yoldan çəkil.
Özün gəlməsən də, göndər bir şəkil,
Gözümüz saraldı yol gözləməkdən.

**04.03.2021**

# AŞIQ ƏDALƏT MİROVDAĞLIYA

Ruhumu oynatdı sazının səsi,
Cınqırım çıxmadı, kəsdim nəfəsi.
Sənin barmaqların səs möcüzəsi,
Sən saz çalanda...

Kino lenti kimi göründü ömrüm,
Sanki lalıxlamış üründü ömrüm.
Gənclik illərinə büründü ömrüm,
Sən saz çalanda...

O dəm gəncliyimiz əlçatmaz olmur,
Niyə bu insanlar bir də doğulmur?!
Ürəklər gül  açır, diləklər solmur,
Sən saz çalanda...

Acı da, şirin də yaddaşdan qopur,
Şirin röya kimi  ruhuma hopur...
Hətta gözəlləşir o heybət, çopur,
Sən saz çalanda...

Könlümdə lalələr düzülür səfə,
İçmək istəyirəm yüz-yüz şərəfə.
Səni hardan alım həmin ərəfə...
Sən saz çalanda....

Həyatda üz-üzə gəlməmişik biz,
Oturub, danışıb, gülməmişik biz.
Asudəlik nədir bilməmişik biz,
Sən saz çalanda...

**05.03.2021**

# SƏNİ GÖRƏNDƏ

Könlüm təzələnir, gözlərim gülür,
Üzüm işıqlanır, sözlərim gülür.
Dağım, dərələrim, düzlərim gülür
Səni görəndə....

Sevginin qədrini gəl, məndən soruş,
Sevdanın ömrünü sevəndən soruş.
Mənim də halımı biləndən soruş,
Səni görəndə...

Zirvəyə çıxmıram, dağ gözdən düşər,
Sən eyvana çıxma, bağ gözdən düşər.
Qəhvəyi göz görsəm, ağ gözdən düşər,
Səni görəndə...

Ruhunda dolaşır arzum, ümidim,
Bu ruhla yaşadım, ruhən böyüdüm.
Mən bir Araz idim, sən bir Kürüdün
Səni görəndə....

Kölgəndə çürütmə Ağaverdini,
Nə halın sorursan, nə də dərdini.
Düşünür kəbinin kəramətini,
Səni görəndə...

**21.04.2021**

# GƏL, GÜL ƏK

Get, get dədən evinə,
Mənim dərdimi çəkmə.
Get sevinə-sevinə,
Küsüb, ətimi tökmə.

Tez get, yolun uzàqdı,
Nə tələ, nə tuzaqdı.
İsti geyin, sazaqdı,
İsti gey, soyuq çəkmə.

Nə deyər bəs dost-tanış,
Mən nə demişəm yanlış?
Sən öz sözünü danış,
Sözü dilimə əkmə.

Gözdən salma hörməti,
Gəl, dəyişək söhbəti.
Bayraq edib minnəti,
Qədrimi yelə bükmə.

Məni danla, gün vermə,
Ayrılığa can vermə.
Eşqini qurban vermə,
Vermə hikkəyə, hökmə.

Heç güdməyib sayğımı,
Çox çəkmisən qayğımı.
Tərk edib eşq bağımı
Qara bulud tək çökmə.

Bəlkə geri dönəsən,
Gəl, barış, çıx önə sən.
Son ver bu tərs günə sən,
Gözünü mənə dikmə.

Yağış ol, yağ üstümə,.
Od vur, baxma tüstümə.
Ağladın nə, küsdün nə,
Ürəyimə dağ çəkmə.

Duman ol, dağımda qal,
Laləmsən, bağımda qal.
Xoş keçən çağımda qal,
Könül sarayın sökmə.

Ağaverdi bir ildi,
Ağrı-acı, inilti.
Qucağında dirildi,
Gəl, gəl, gül ək, dil əkmə.

**29.04.2021**

## 44 GÜNLÜK AY

44 deyək yarısına,
Qızıl payız arısına.
Yaz balından o şirindir,
Payız gəlib, barın sına.

Nağılların 40 otağı,
Əsrarəngiz 44 bağı.
Dünyanı gəzir, dolaşır
44 günün xoş sorağı.

Hər günün öz nağılı var,
Möcüzəsi, ağılı var.
Əlbəyaxa döyüşlərin,
Şuşa boyda daxılı var.

Bədirlənmiş ay gecəmiz,
İlahidən pay gecəmiz.
Atəşfəşanlı keçəcək,
44 günlük toy gecəmiz.

44 günlük ay uzundur,
Müjdələr o payızındır.
Ay mələyim, bu payız da
Ürəyimi sən qızındır.

**05.2021**

## AZƏRBAYCAN ƏSGƏRİ

Azad etdi neçə kəndi, şəhəri,
44 gündə başa vurdu zəfəri.
Şücaətin mat qoyubdu bəşəri,
Azərbaycan əsgəri.

Ya oğuldu, ya atadı, ya ərdi,
Ya şəhiddi, ya qazidi, əsgərdi.
Tarix yazdı, qəhrəmandı hər fərdi,
Azərbaycan əsgəri.

44 günlük boy artımın əzəmət,
Tank, pedeem, zirehlilər-qənimət.
Alqışlayır islam dünyan, şəriət,
Azərbaycan əsgəri.

Üfüqlərdə göy qurşağı göründü,
Odlar yurdu bayraq-bayraq büründü.
İlan düşmən dil çıxardıb süründü,
Azərbaycan əsgəri.

Ana torpaq qan tökdüyün vətəndi,
Komandana və xalqına güvəndin.
Anasını, atasını sevəndi...,
Azərbaycan əsgəri.

Könül verib, yola düşdü döyüşə,
Dəsmal alıb, əmin edib görüşə.
Düşmən qovdu, daraşmışdı örüşə,
Azərbaycan əsgəri.

Qamətinə, qeyrətinə qurbanam,
Bayraq olan vüqarına heyranam.
Bir gələsən, mən başına dolanam,
Azərbaycan əsgəri.

Ağaverdi, arxayınca ək-becər,
Bir ordun var, o qalib, o müzəffər.
Yenilməzdi, möhtəşəmdi bu zəfər,
Azərbaycan əsgəri.

**20.11.2020**

# GEDİR

Qənimət ov yemir ovçu tulası,
Ovçu rüsxət versə, çımxırsan..., gedir.
İlandan doğulur ilan balası,
Zəhərin boşaldır bircə an, gedir.

Sözün düzün demək bizlərə qaldı,
Nahaqqı həzm etmək düzlərə qaldı.
Nə edək, döyməyək dizlərə, qaldı...,
Hələ ki, düz yolda şər-böhtan gedir.

Həyat zənciridir oğul da, qız da,
Xoş günlərin istə, qalsan yalqız da.
Hər kəlam gözəldir "şirin ağız"da,
Sevgini tükətmə, bu dövran gedir.

Ölüm - ömrümüzün son duracağı,
Gözləmə, gələcək ömrün son çağı.
İnsanın həyatda olmayacağı
Günlərə üzülmə, bax, zaman gedir.

Allah da ayırır yaxşı, yamanı,
Muxtar yaradıbdır özü insanı.
Segaha kökləyib tarı, kamanı,
Ömür dediyimiz bir karvan gedir.

Dövrün hikmətidir bu deyilənlər,
Yaxşı dövran qurur bir "əyilənlər".
Baxıb köks ötürür hey deyinənlər,
Dünən hökm verən hökmüran ğedir.

Sorma, Ağaverdi nisgilinmi var,
Hanı yurd dediyim o gözəl diyar?
Qarabağda əsir soyuq bir rüzgar,
Yaşaya bilərmi mərd insan, gedir.



## BİZİM İKİ NÖQSANIMIZ

Bu dünyanın gözün tutan erməninin xaçıdır,
Qərbin gözü tutulub, ya sözün düzü acıdır?!

Avropalı nə görübdü ermənidə, bilmirəm,
Bunlar bilmir millətimiz millətlərin tacıdır.

Ermənininin nəyi var ki, Makrona da nə versin,
Yoxsa onun xoşu gələn Kardaşyanın saçıdır?

Azərbaycan və Türkiyə, görmürlər ki, birləşib,
İki dövlət, bir millətdir, ya qardaş, ya bacıdır.

Gah ingilis, gah fransız, gah da farsdır, ya da rus,
Bu erməni hələ bilmir, riyakarlıq qayçıdır!!

Bir kimsənin süfrəsində olmaz bizim gözümüz,
Halal çörək bişirən də Azərbaycan sacıdır.

Ağaverdi, bizim iki nöqsanımız ev yıxır,
Unutqanlıq, olsa- olsa bir də gözəl axçıdır.[1]

**20.06.2021**

[1] Ermənilər qızlarına "axçı" deyir.

# HƏYATIMIN QƏLƏTİDİR

*(dostumun xahişi ilə)*

Qarğı deyil, zurna yonub, çalasan,
Baldız deyil, arvad ölsə alasan.
Şüşə deyil, sınsın deyə salasan,
Həyatımın xiffətidir, xiffəti.

Üzü qara ağ üzümü qırlayır,
Boş çomçədir, dovğa kimi fırlayır.
İtəməlli həyatımı zorlayır,
Gəncliyimin "xələtidir, xələti"...

Diş deyil ki, çəkdirəsən, atasan,
At deyil ki, Xocahanda satasan[1].
Qonşum deyil, daşdan hasar çatasan,
Həyatımın zillətidir, zilləti...

Cana yığıb şirinağız yalanı,
Minir-düşür, belim olub palanı.
Suya çəkər o yatağan ilanı,
Ara vurmaq xislətidir, xisləti....

Tündməcazdır, olammadı sirdaşım,
Sən bilməzsən nəmənədir, qardaşım.
Yazıq canım, bəxtsiz ömrüm, kül başım,
Həyatımın qələtidir, qələti...

---

[6] Qubadlının Xocahan kəndində həftə bazar var idi. Orada həftədə bir dəfə hər şey, həm də mal-heyvan satılırdı.

Arvadlığın düz-əməlli yolu var,
Nöqsan tutsan, naşı bilib, dolayar.
Ağa Aqil sevər, tapsa əsil yar,
O ömrünün külfətidi, külfəti...

**26.04.2021**



* * *

Necə ağlamayım mən, bu canımdan can ayrılıb,
Ruhum bədəndən çıxıb, damarımdan qan ayrılıb.

Bəy-xan kimi yeriyər, qəddi-qamət göstərərdim,
Ruhdan elə düşmüşəm, xanimanımdan xan ayrılıb.

Əzizimi tapşırıb bu torpağa, yanar dağa,
Əzəl yurda dönürəm, köç karvanım yan ayrılıb.

Bir yol duyğulanmıram, bilinmir gecəm- gündüzüm,
Zamanı yadırğamışam, nə vaxtdır dan ayrılıb .

Qayğımı çəkir, baxır, minnətdaram dilbərimə,
Arı tək durmaq bilmir, ürəyi şan-şan ayrılıb.

Röyada gördüklərin çin olacaq Ağaverdi,
Güney Qüzey birləşir, can Azərbaycan ayrılıb.

* * *

Ermənin xislətində nə din, nə də iman gördüm,
Mən getmişdim kəndimizə, kəndimizi viran gördüm.

Söküb dağıtmaqdan başqa bir şey gəlmir əllərindən,
Miras kimi 30 illik dağıdıcı dövran gördüm.

Abad idi evim, bağım,  bir yarımçıq divar qalıb,
Divarımı uçuq, sökük, dəlik, deşik, üryan gördüm.

Bağımızda ağac yoxdur, böyürtkən kolluğa dönüb,
Su quyuma daş tökübər,  arxlar üçub, yarğan gördüm.

Çardağıma, tövləmə də  göz dikiblər bu barbarlar,
Gündüzlərin xarabalıq, gecələrin sehran gördüm.

Gəlib, görsün dəstəkçilər,  su versinlər gözlərinə,
Zaman- zaman üzə çıxdı, çox dəstəkçi, "heyran" gördüm.

Bir tərəfdə qayğılanan, içdən yanan ulu Təbriz,
Bir tərəfdə gizli, aşkar bir züy tutan Tehran gördüm.

Ağaverdi oyalanma, sən də sığın dövlətinə,
Xalqımızın gözlərində liderinə şükran gördüm.

**06.2021**



* * *

Əcəlim bəlkə çatıb, sümüklərim də ağrıyır,
Molla gəlir, nə əcəb…, kipriklərim də ağrıyır.

İçimdə qızdırma var,  yarpaq kimi tutrəyirəm,
Ağrılarımı bilmirəm, kəmiklərim də ağrıyır.

Sevirəm şənlənməyi , səbəb olsa, deyib-gülləm,
Vay halıma çəpik çalım, çəpiklərim də ağrıyır,

Yanımdan yel ötdümü, soyuq dəyir vücuduma,
Ayağımı yerə vursam, təpiklərim də ağrıyır.

Əniklərimdən başqa diş qalmayıb damağımda,
Bir tikə nəsə yesəm, əniklərim də ağrıyır.

Əşhədanı bilirəm, qoy onu dilə gətirim,
La ilahə illəllah..., şəbihlərim də ağrıyır.

Könlümün sultanı bəs hardan biləcək, ölürəm,
Ağzımdan çıxan sözlər, dediklərim də ağrıyır.

**11.04.2021**

* * *

Hər kiçik sevincinə şərik olmaq xoşdur mənə,
Səninlə hər vəhdətdə məni bəxtiyar elədin.

İndi dilə, vətənə,  eşqimə qəzəl yazıram,
Sən məni Məcnuna tay, Vahid tək duyar elədin.

Sevginə mübtəlayam, mən o gündən dillərdəyəm,
Tanıyan vardı məni,  adımı şüar elədin.

Bir şeir yazsam əgər Təbrizə, Heydərbabaya,
Qarabağ əhli deyər, məni Şəhriyar elədin.

Şeytana uyduq bəzən, bəlalar çəkdi başımız,
Könlündən şeytanı qov, cövrünə diyar elədin.

Şeirimi oxuyanlar məni yeniyetmə bilir,
Ağaverdi ahıl biri, onu ixtiyar elədin.

.

* * *

Düşünüb eşqimizi, şövq ilə gərdiş elədim,
Gəldi ərsəyə qəzəl, təbimi təftiş elədin.

Pışvaza çıxmağıma gizlicə ehyam vurdun,
Şairə anlat necə, bu qulu dərviş elədin?

Gözəlim, qəmzələrin məşğul edir hər günümü,
Qəlbimi ovlamağı bəs necə vərdiş elədin?

Sayəndə yaman artıb həyata şövqüm, həvəsim,
O səbəbdən də sənə min kərə alqış elədim.

Vahidin qəzəllərin qoy qırağa, ta oxuma,
Qəzəli tutuşdurub, deyəssən yanlış elədin.

Ağaverdi olacaq həyatda arxan, dayağın,
Elə iş tutmaz axı, deyəsən qarğış elədin.

**10.04.2021**

* * *

Deyərdin "Qoy yekəlim,  alagöz ceyran olacam,
Atomun vaxtı keçib, əlçatmaz neyron olacam.

Biz dost belə olammarıq, maqnitin cüt qütbü kimi,
Sən qaymağı xoşlayırsan, mən onda ayran olacam.

Məndən sizə gəlin olmaz, daha kimdi namizədin,
Mən sizdə gəlin olsam, sizi ayıran olacam."

Təsir etməzdi mənə sən şıltağın nağılları,
Ağlıma gəlməzdi ki, mən bir gün peşman olacam.

Dilimi dinc saxlayar, xətrinə dəyməzdim axı,
Nə bilərdim ki, sənə axırda heyran olacam.

Qəm yemə, Ağaverdi, peşmanlığın vaxtı deyil,
İndi hər gözəl deyir, alagöz ceyran olacam.

**10.04.2021**



## UFAQ YUVA

Allahın sərçəsi ondan küsmüşdü,
Əlin ətəyindən tamam üzmüşdü.
Sərçə nə dinirdi, nə danışırdı,
İçin-için yanır, hey alışırdı.
Bir də unutmuşdu şükrün, duasın,
Tufan uçurmuşdu ufaq yuvasın.
Allahın əmriydi tufanın işi,
Bəs niyə vermişdi bu göstərişi?!
Heç cür sığdırmırdı ağlına sərçə,
Düşündü, unutmaz bunu ölüncə.
Yuvası uçanda çox üşümüşdü,
Qəlbi qırılmışdı, o asi düşdü.
Kiçik xanədandı uçan yuvası,
Daha nəyə lazım allah duası?!
Mələklər də görüb, qayğılandılar,
Xeyli düşündülər, onu andılar.
Başa düşmürdülər dönüklüyünü,
Axı görmüşdülər mömünlüyünü.
Mələklər üz tutdu haqq hüzuruna,

Bəlkə əlac edə bu bəd duruma:
“Ya rəbb, bir kömək et, naçar bəndənə,”
Deyib yalvardılar hey dönə-dönə:
“Sərçə daim susur, asi düşəcək,
Haqqın hüzuruna o gəlməyəcək?
Məəttəl qalmışıq susqunluğuna,
Biz də alışmışdıq uyğunluğuna.”
Allahın təmkini qəribə idi,
Hər şəkkə, şübhəyə bir zərbə idi:
“Darıxmayın, gələr, səhvin anlayar,
Məntiqlidir, özü özün danlayar.”
Kim şəkk edə bilər ədalətinə,
Dünyanı yönəldən məharətinə.
Səbir allahındı, hökm allahındı,
Mələklər anladı söz sabahındı.
Səhər də gördülər, sərçə oxudu,
Yolun da seçmişdi haqqa doğrudu.
Gəlib düz dayandı haqqın önündə,
Narazılıq vardı sınıq könlündə:
“Axı necə qıydın ufaq yuvama?
Mən necə güvənim bəs allahıma?!”
Allah dərgahında danışmaq çətin,
Allah açıqladı öz həqiqətin:
“Şükr edib yatmışdın ufaq yuvada,
Ora yönəlmişdi bir əjdaha da.
Tufanı göndərdim təhlükə bitdi,
Sənin də yuvanın samanın diddi.”
Bunu eşidəndə sərçə utandı,
Səcdəyə yönəldi..., məsum dayandı.

**25.01.2021**

# İNCƏ HESAB ÇƏKİR

Müharibə gördük..., köçkünlük gördük....,
Öz hesabın çəkdi fələk bizimlə.
Düşmənin başına dar corab hördük,
Dözdük çətinliyə, dözdük əzmlə.

Biz asi düşmədik, inam gətirdik,
Çox uca şərəflə hərbi bitirdik.
Biz qalib olsaq da, biz də itirdik,
İncə hesab çəkdi fələk bizimlə.

Olmaya bilərdi ölüm və itim,
Olmaya bilərdi qazim, şəhidim.
Mən nə qazanmışdım, nələr itirdim,
İncə hesab çəkdi fələk bizimlə.

Dinc yaşaya bilmir bu insan, niyə?
Nəfsi qılınc olub, tamahı tiyə.
Olmaz ki, dinc dura, nə də inciyə,
İncə hesab çəkir fələk bizimlə.

Ağlaya-ağlaya, hayla-harayla,
Doğulan körpəyə çalınır layla.
Seyrəlir sıramız günlərlə, ayla,
İncə hesab çəkir fələk bizimlə.

Dəyişir halımız, keçdikcə zaman,
Əcəl günümüz var, verməz ki aman.
İçimdə sızlayır bir ney, bir kaman,
İncə hesab çəkir fələk bizimlə.

Bir gün sona çatır alın yazımız,
Xatirədə qalar xeyirxahımız.
Kəfən geyinirik sonda hamımız,
İncə hesab çəkir fələk bizimlə .

Ruhun inciməz ki, ay Ağaverdi,
Cənnət dediyin də çox gözəl yerdi.
Cənnəti, behişti bəs kimə verdi,
İncə hesab çəkir fələk bizimlə.

**15.07.2021**

## ƏDALƏT YAŞAYIR TOR GÖZLƏRİMDƏ

"Şəkər" üstün gəlir, tor görür gözüm,
Təpər də qalmayıb ta dizlərimdə.
Gərək həkim tapım, eyləsin çözüm,
Yoxsa zülmətləşər gündüzlərim də.

Bəs kim yönəldəcək qaşığın yolun,
Kimsə varmı tutsun xəstənin qolun?
Əngəli çoxumuş bir ayaqyolun,
Niyə tikan bitdi bu düzlərimdə?

Özüm seçməmişəm bu fənalığı,
Zaman-zaman tapdım bu tənhalığı.
Qəbul edəmmədim hər yamanlığı,
Peşiman deyiləm tərcihlərimdə.

Daim yerindədir əzmim, inadım,
Özünə güvəndir dostum, imdadım.
Qayğımı çəkməsin kimsə övladım,
Narahat olmasın əzizlərim də.

Ağa Aqil, qorxma, kor olmaz gözün,
Alınma, çevrəndə keçmirsə sözün.
Demişəm, deyəcəm mən sözün düzün,
Ədalət yaşayır tor gözlərimdə.

**30.07.2021**



## QORXDUM Kİ...

Getmək istəyirdim dünən yanına,
Bir "vicvicə" düşdü sanki canıma.
Görmək istəyirdim eşq mələyimi,
İntizar çökmüşdü hər bir anıma.

Qapını əlimlə döymək istədim,
Gördüm xəyalımla ruhən görüşür.
Ağacın qanadın əymək istədim,
əymədim....,
yoluna kölgəsi düşür.

Günəşi geymişdim yandı ətrafım,
soyundum...,
qorxdum ki, oda salaram.
Bir gün alışacaq həsrətim, ahım,
alışsam...,
qadanı özüm alaram.

Buludu əynimə geymək istədim,
geymədim...,
qorxdum ki, çöl duman olar.
Pünhan gəlməyimi sən istəmişdin,
gəlmədim...,
qorxdum ki, bir duyan olar.
**18.07.2021**

## YAZILIM YAP-a

Mənim qalmayıbdı müxalifliyim,
Bu gündən gedirəm yazılam YAP-a.
Bəlkə lazım olar elmim, biliyim,
Bir işdən yapışıb, göstərim çaba,
Bu gündən gedirəm yazılam YAP-a.

28 yaşa doldu nisgilim,
44 gün günbəgün soldu nisgilim.
8 noyabrda öldü nisgilim,
Mənim başqa arzum qalmayıb daha,
Bu gündən gedirəm yazılam YAP-a.

Baxıram, iş görüb çalışanlara,
Dözmürəm bu boş-boş danışanlara.
Bu yava, bu yala alışqanlara.
Yal verənə baxıb, hürürlər şaha,
Bu gündən gedirəm yazılam YAP-a.

Kamandan hardadır, birgə olacam,
Gözə görünmərəm, gizli qalacam.
Gərək olan yerdə görəv alacam,
ZƏFƏR işığında yönüm sabaha,
Bu gündən gedirəm yazılam YAP-a.

Mənim bir təmənnam, diləyim yoxdur,
Ürəyim genişdir, gözüm də toxdur.
Bir vətən borcum var boynumda, çoxdur.
Arzumu düzmüşəm muncuq tək sapa,
Bu gündən gedirəm yazılam YAP-a.

Böyük qayıdışa göyərçin olum,
Ey kəndlim, ey köçkün ilk elçin olum.
Sən mənə arxalan, güvəncin olum,
Gəl, dostum, adını yazım kitaba,
Gəl, gedək, bu gündən yazılaq YAP-a.

Bir yerə toplaşır Turan elləri,
Qırğız, Türkmən, Qazax, türk və azəri.
Onlar alqışlayır bizim ZƏFƏR-i,
Yanılıb hay keşiş, yanılıb Papa,
Bu gündən gedirəm yazılam YAP-a.

Sözü əməlidir Ağaverdinin,
Dörd illik dostudur o Xankəndinin.
Üstündən xətt çəkib işğal dərdinin,
Gedir ki,  bu gündən yazılsın YAP-a,
Yəqin götürərlər...., pənah allaha....

# QARA DAŞLAR GÖYƏRDİ....

Novruz günü sevinc sarsın cahanı,
Qoy canlansın köhnə şəhər meydanı.
Fövtə vermək olmaz belə imkanı,
Musa Yaqub bir də yazsa, deyərdi,
Bu dünyanın Qara daşı göyərdi.

Yoxa çıxıb alnımızın ləkəsi,
Qaysaq tutub Xocalı faciəsi.
Qalib, müzəffərdir Odlar ölkəsi,
Musa Yaqub ordumuzu öyərdi,
Bu dünyanın Qara daşı göyərdi.

Cilvələnsin qız-gəlinlər, bayramdı,
Düşmənimiz pis gündədi, arandı.
Yedikləri, içdikləri haramdı,
Musa Yaqub kamandanı öyərdi,
Bu dünyanın qara daşı göyərdi.

ZƏFƏRimiz heyran qoyub dünyanı,
Şənlik, sevinc qoy bəzəsin meydanı.
Günəş burda, ay üfüqdə, mey hanı?
Musa Yaqub gözəl sağlıq deyərdi,
Bu dünyanın qara daşı göyərdi.

Arxalandın ustad şair fikrinə,
Uğur qatdı bu yöntəmin şeirinə.
Ağaverdi, daha getmə dərinə,
Musa Yaqub bu gün üçün deyərdi,
Bu dünyanın qara daşı göyərdi.

**12.03.2021.**

# ŞƏHİD ƏSGƏRİN MƏKTUBU

Sənə söz vermişdim, hərb bitsin, gəlim,
Gövrək duyğuları ayıldacağam.
Mənə yar olmadı vaxtsız əcəlim,
Görünür, tabutda qayıdacağam.

Mən səni çox sevdim, özümdən də çox,
Yaram çox qan verir, nakar qalmışam.
Gozüm kimi sevdim, gözümdən də çox,
Heynim ki, çox ağır yara almışam.

Xöşbəxtliyin arzum idi, olmadı...,
Oğul lazım, darda qalsa ölkəsi.
“Göbəkkəsdi” idik, qismət olmadı,
Müqəddəsmiş ana Vətən sevgisi.

Vaxtım çox az qalıb, sondur biləsən,
Bu az vaxtda mən yazıram məktubu.
Kaş yanımda sən üzümə güləsən,
Üfüq çəkir gözlərimin qürubu.

Sarınsa da, bir axın var qanımda,
Əlini üz, bir yuva qur özünə.
Gətirəcək, əsgər dostum yanımda,
Sən ağlama, yaş yaraşmaz gözünə.

Mən sözümü tutammadım sevgilim,
Ya qismət bu..., zaman gələr..., gülərsən.
Hənirtinə çox möhtacam, sevgilim,
Şəhid olsam, məzarıma gələrsən.

**06.12.2020**

* * *

Bayrağımız olan yerdə şəhidlərin baxışı var,
Vətən, torpaq və sülh üçün arzuları, alqışı var.

Azad edib torpaqları, qanlarıyla suladılar,
Buxarlanıb, duman olur, təkrar-təkrar yağışı var.

Bayrağımız olan yerdə qan yaddaşı çıxır önə,
Bu qan keçib canımıza, qan coşduran axışı var.

Bayrağımız olan yerdə şəhidlərin xatirəsi,
Bir ehtiram nümunəsi, bir xiyaban naxışı var.

Bir əsgəri yöntəm gördüm, mən aradım arzuların,
Vətən dara düşən kimi qan-qan deyən çağrışı var.

Bu vətənin candan keçən dəliqanlı oğulları,
Ölümünə göz qırpmayan fərli, fərsiz, dığışı var.

Zəngəzurdan dəhliz salır zəfər çalan liderimiz,
Naxçıvana, Türkiyəyə Azərbaycan çıxışı var.

O şəhidlər qanlarıyla ödədilər vətən borcun,
Ağaverdi, geri qalma, bu vətənin qalxışı var.

**09.08.2021**

# NƏSİHƏT

İtirə-itirə getdiyim yolu,
İtirə-itirə sən keçmə, oğul.
Alnın açıq olsun, gözün tox, dolu,
Keçilmiş cığırı yol seçmə, oğul.

Yeni yolun olsun, fərdi cığırın,
Yanlış adamlarla olmaz axırın.
Saxta işlər görmə, çıxar paxırın,
İşini elə tut, incimə oğul.

Övlad tərbiyəsin beşiyində qur,
Vətənin həmişə keşiyində dur.
Düşməni məhv elə, deşiyində vur,
Düşməni sən alma vecinə, oğul.

Gözündən qaçırma hədəfin olsun,
Nəfs də, tamah da sədəfin olsun.
Meyə meyl eləmə...., qədəhin olsun,
Şərabın həddin bil, çox içmə, oğul.

Gül məskəni olsun bəxt gülüstanın,
Bəxti yeyin olur bəzən astanın.
Laləzara dönsün həyat dastanın,
Xeyirxah işlər gör, yol ölçmə, oğul.

Ağac ək, gül becər, məktəb tik, yol çək,
Balığı at nəhrə, xaliq biləcək.
Onsuz da doğulan bir gün öləcək,
Herağac sünbülü tez biçmə, oğul.

Əlbəttə, çiyin ver gücün çatana,
Güvən gücünə güc, dəyər qatana.
Sən haqq verəcəksən bir gün atana,
Gücümü qatacam gücünə, oğul.

Hər vaxt fərəhləndim uğurunuza,
Ağaverdi gəlib hüzurunuza.
Əf edin, dəyibdi qürurunuza,
Tövbəlik nə var ki, and içmə oğul.

**12.08.2021**

# OĞRU BİZİK, DOĞRU ANA

*(epik poema)*

Ömrü, günü verib puça,
Dilənır bir "yolçu" qoca.
Pul versəm də sevinməyir,
Dərd-qəm çəkir o bolluca.

Əqrabası yox kimidir,
Söz-söhbəti tox kimidir.
Bir öynəlik çörək pulu,
Bir ömürlük "dağ" kimidir.

Görən yoxmu diləni,
O qadını, bu körpəni.
Bir mənmi görən olmuşam,
Korluq tutub ya ölkəni?!

Bazar xərci çox yüksəkdi,
Küçədə də alver olmaz.
Polis qovdu, təpik yedi,
Cahan qarı, arıq Almaz.

Evdə uşaq yol gözləyir,
Paltar, çəkmə, ərzaq umur.
Dünya başına fırlanır,
Hansı yazıq gözün yumur.

Bir yol qalır: dilənçilik,
Lüzum qalmır ta keçmişə.
Ehtiyac bir iti qılınc,
Çıxış yolu "qədim peşə".

Dubay yolu, ya İstanbul,
Pərdə olub pis əmələ.
Səs yayılır, çalır "dumbul",
Barıt qoyur hər təmələ.

Ərazi var bölünübdü,
Dilənçilər arasında.
Ziyalı var yer tutubdu,
Bu dəstənin sırasında.

Burda işə rüşvət yoxdur,
Bir fərasət seçimi var.
Növbə tutanlar da çoxdur,
Dövrün bu növ pərçimi var.

Hansın deyim, birdi-beşdi,
Min manat ver o şikəstə.
"Qalstuqlu"  bayaq keçdi,
Metroya gir..., dəstə-dəstə.

ANS-də sujet gedir,
Soyğunçudur gözəl qadın.
Bir müstəntiq ona deyir,
Öz soyğunçu, idbar adın.

Qonşuluqda sırğa görüb,
Qızcığazın qulağında.
Onu açmaq asan deyil,
Gərək dursun qılığında.

Qızcığazı dilə tutub,
Açıb onun sırğasını.
Eşitsə də söyüş, udub,
Alçaldıcı bir yol tutub.

Təki bir də o duymasın
Ac qızının ağrısını.
Ağlayaraq təsdiqləyir
Müstəntiqin sorğusunu.

Çox tənəli, ağır sözdür
"Oğru qadın", "oğru ANA".
Bu dövranı biz qurmuşuq,
Oğru BİZİK, doğru ANA.

Əlimizdən bəs nə gəlir,
Kimsə söyür, yamanlayır.
Narazılıq çarə deyil,
Məsullarsa utanmayır.

Varlımız, hallımız hanı...,
Yoxmu bu dövrün hakimi?
Bəlkə bir tədbir görəcək,
Hacı Zeynalabdın kimi.

Növbə indi namuslunun ,
İqtidarlı varlınındır.
İş yerləri yaradanın,
Dada yetən karlınındır.

İrəli dur, varlı qardaş,
Bu dəhşətin qarşısın al.
Əzab çəkir millətimiz,
İstiqanlı bir nəzər sal.

Ürəyinə nur düşəcək,
Aləmə səs salacaqsan.
Zeynalabdın Tağıyev tək
Böyük insan olacaqsan.

Adın-sanın yayılacaq,
Ürəklərə girəcəksən.
Əməyinin yüz qat artıq
Bəhrin, barın görəcəksən.

Uğur olsun, uğura çıx,
Yaza tapın, yağmura çıx.
Gəl, bu faciəni önlə,
Safa, paka, axıra çıx.

**1992**

# SALAM MƏMLƏKƏTİM, A MƏNİM KƏNDİM
*(poema)*



Otuz il gözlədin..., dərd eləmişdin,
Salam, məmləkətim, a mənim kəndim.
Dizimlə sürünüm, əhd eləmişdim,
Duam, şərafətim, a mənim kəndim.
Salam məmləkətim, a mənim kəndim.

Komandan güc aldı xalq birliyindən,
Qurtuldun.., qurtuldun əsirliyindən.
Qüvvə tap, yararlan özgürlüyündən,
Mənim ata yurdum, ana vətənim,
Salam məmləkətim, a mənim kəndim.

Düşmən çox oynadı şərəfimizlə,
Bünövrə qoyuldu sələfimizlə.
İndi öyünürük xələfimizlə,
Haqqı, ədaləti axır ki, gördüm,
Salam məmləkətim, a mənim kəndim.

Üzümü qoy sürtüm daşa, torpağa,
Bürünüm kəfənə, düşüm  ayağa.
Bağışla, bağışla, canım sadağa,
Haqqım, şəhadətim, a mənim kəndim
Şövqüm, bədahətim, a mənim kəndim.

Nə xoş, mən də varam bu təntənədə,
Mən qurban demişəm bu fəxarətə.
Komandan yetirən bu səltənətə,
Ey arzum, ey kamım, ey məharətim,
Eşqim, səadətim, a mənim kəndim.

Baxıb sevinirəm Suqovuşana,
Qaşbaşı bürünüb bom-boz yovşana.
Bağım kövşən olub adadovşana,
Yamacından baxmaq olmuşdu əhdim,
Salam məmləkətim, a mənim kəndim.

Həsrətdə bişmişdim, odda yoğruldum.
Sən azad olmusan, təkrar doğuldum.
Özlədin, gözlədin, il-il yoruldun,
Anam, şan-şöhrətim, a mənim kəndim.
Salam məmləkətim, a mənim kəndim.

Salam gətirmişəm paytaxt Bakıdan,
Şitil göndəriblər hər biri fidan.
Düşmən ayrı saldı bizi bu yurddan,
İşğaldan qurtulan son müsibətim,
Salam məmləkıtim, a mənim kəndim.

Yamacın gül-çiçək, düzün yam-yaşıl,
Bu gözəllik sənə necə yaraşır.
Bu gecə yataram, pəh mışıl-mışıl...,
Şerim, şeriyyətim, a mənim kəndim,
Salam məmləkətim, a mənim kəndim.

Hardadı, görünmür yorğa kəhərim,
Axtardım, tapmıram, yoxdu yəhərim.
Ay oğru erməni, olsun zəhərin,
Abadlıq tapacaq düzənim, kəndim,
Salam məmləkətim, a mənim kəndim.

Çıxardım çardağa, gizlincim vardı,
Hanı o ağaclar, qatar-qatardı?
Su görməyib, sinən cadar- cadardı,
Əzəlim, özəlim, kürməyim, fəndim,
Salam məmləkətim, a mənim kəndim.

Leylək yuvasıydı çinarın başı,
Pirin şam yeriydi çuxurlu daşı.
Bir toyçu çağırım, verim şabaşı,
Azad nəfəs alsın, qoy azad kəndim,
Səni tərk edəcək hər fəsad, kəndim.

Yayılsın kəndlərə zurnanın səsi,
Yurdumdan çəkilsin namərd nəfəsi.
Artsın elimizin cəngi həvəsi,
Qoy şərbətə dönsün dilim, əfəndim,
Salam məmləkətim, a mənim kəndim.

Avsanat var imiş çörəyimizdə,
Arzumuz da böyük, diləyimiz də.
Sevgimiz yaşayır ürəyimizdə,
Ay mənim ilk sevgim, son məhəbbətim,
Salam məmləkətim, a mənim kəndim.

Səni viran gördüm, sızladı ürək,
Yan-yörəmdə gəzir bir yalqız köpək.
Dörd-beş də pişik var rəngbərəng, ürkək,
Dağılmış yurd-yuvam, puç olmuş zəndim,
Salam məmləkətim, a mənim kəndim.

Tövlə divarın da sökübdü yağı,
Uçurub, dağıdıb hər təm- tarağı.
Viranə eyləyib bağçanı-bağı,
Ay sitəmlər görmüş küskün əfəndim,
Salam məmləkətim, a mənim kəndim.

Bir də sualım var, sən qulaq assan,
Bəs o acgözlərdən soruşmamısan?
Bu qədər şərəfsiz olarmı insan?!
Bəxtim,  əmanətim, a mənim kəndim,
Salam məmləkətım, a mənim kəndim.

İmarət tikmişdim, bünövrə qalıb,
Livanlı erməni kənddə yurd salıb.
Bağı kol-kos basıb, cəviz qocalıb,
İstim, hərarətim, şəkərim, qəndim,
Salam məmləkətim, a mənim kəndim.

Mən gəzdim, dolandım Əyri Dərəni,
Sel-suya vermisən arxı, bərəni.
Yerbəyer elədin təzə gələni,
Ay mələksifətim, a mənim kəndim,
Salam məmləkətim, a mənim kəndim.

Mənə deyirlər ki, yaxşı yazırsan,
Bağı şumlamısan, arxı qazırsan.
Yay hələ bitməyib, qışà hazırsan,
Qonaqpərvər ruhum, döyüşkən fəndim,
Salam məmləkətim, a mənim kəndim.

Bol məhsul verəcək topallı dərə,
Əlimiz catacaq bara, bəhərə.
Ağız dadım dönər bala, şəkərə,
Xeyrim, bərəkətim, a mənim kəndim,
Salam məmləkətim, a mənim kəndim.

Həkəri, Bərgüşad bol sulu çaylar,
Dəyər verəmməzdi yırtıcı haylar.
Çaylar şırıldayıb həmdəm haraylar,
Kürüm, Xan Arazım, təhnəli bəndim,
Salam məmləkətim, a mənim kəndim.

Qaşbaşıya çıxmaq ta mənlik deyil,
Bulağdan su içdik, bir sevin, bir gül.
Tutu silkələdim çiynimlə yüngül,
Namusum, qeyrətim, a mənim kəndim,
Salam məmləkətim, a mənim kəndim.

Kəndimin görkəmi xaraba qalıb,
Üstə qrad düşən araba qalıb,
Bu mənfurlar qaçıb, məhrəba qalıb,
Bərbad olan kəndim, a mənim kəndim,
Salam məmləkətim, a mənim kəndim.

Gedib mən baxmışam qəbirstanlığa,
Damarda qan donur bircə anlığa.

Qəbirlər də dözmür bu barbarlığa,
Söküb dağıdıblar, diz üstə çökdüm.
Qırıqları yığıb bir yerə tökdüm.

Bu şeytan xislətli döl haradandı?!
Erməni sifətli üz qaradandı.
Şeytan ruhlu canlar necə yarandı?!
Tanrım güc ver mənə, bitdim, tükəndim,
Başın nələr çəkib, bəlalı kəndim.

Arxımız varıdı, sel hamarlayıb,
Gözə nə görünüb, hay qamarlayıb.
Bu nə görməmişlik..., ayıbdı, ayıb,
Ey talan edilən, soyulan fərdim,
Salam məmləkətim, a mənim kəndim.

Saraylar tikəcək hər oğlun, qızın,
Küçə salacağıq düz, uzun-uzun.
Tama gətirəcək xörəyi duzun,
Cəlalım, hilalım, imanım, dinim,
Salam məmləkətim, a mənim kəndim.

Nar bağı salacam Uzun dərədə,
Bir arzu doğurub illər hərədə.
İnana bilmirəm buna hələ də,
Həm çimdik götürdüm, həm dümsüklədim,
Salam məmləkətim, a mənim kəndim.

Bəlkə dəyişdirək sənin adını,
İlhamabad olsun, yazaq aktını.
Sən belə sevindir, güldür baxtını,
Ay mənim taleyim, ay mənim bəxtim,
Salam məmləkətim, a mənim kəndim.

Ağaverdi sevin, ey vətənpərvər,
Abadlıq tapacaq hər kənd, hər şəhər.
Bülbüllər ötəcək hər axşam-səhər,
Cənnətə dönəcək, ta olmaz dərdin,
Salam, məmləkətim, a mənim kəndim.

**20.10.2020**

## BU DÜNYA NARAHATDI

Müəmmadır bu dövran,
Gizli sirlər hökmüran.
Hara gedir bu karvan,
Bu dünya zamin kimi.

Terror meydan sulayır,
Qatil qurd tək ulayır.
Kimdir "quyruq" bulayır,
Pay umur yardım kimi.

Bir müdhiş terror aktı,
Pentaqon yerə yatdı.
Bu dünya narahatdı,
Hamilə qadın kimi.

Bayquş uladan bir sirr,
Yoxa çıxıb müqəssir.
Göydələnlər birə-bir
Viranə Xatın kimi.

Cənab Buş[1], bu nə görkəm,
Kədərinə şərikəm.
Fəqət, mənim də ölkəm
Hüzünlü halın kimi.

Dünyanın dərdləri çox,
Bir mənə qalıbmı? Yox.
Qarabağ -köksümdə ox,
Hökm edən harın kimi.

Güllük qanqal bitirməz,
Müdrik ağlın itirməz.
Dünya oğul yetirməz
"Konsensus" Aydın[2] kimi.

Kapital pul yaradır,
Tənhalıq dul yaradır.
Ehtiyac qul yaradır,
Fahişə Xatun kimi.

**11.09.2001**

## TURAN BİZİMDİR

Bu dünya kimindir, yəqin də deyil,
Sahiblik qərbin də, şərqin də deyil.
Nədir daşıdığı fərqində deyil,
Sarvan yol göstərən…, karvan kimindir?

---

[1] Buş - Amerikanın prezidenti olub.
[2] "Konsensus" Aydın - Qarabağa Xalq Yardımı Komitəsinin sədr müavini olub. Barışdırıcı mövqeyinə görə Konsensus ləqəbi qazanmışdır.

Zaman amansızdır, ömür ötəri,
Beləcə yaradib tanrı bu “Yer”i.
Çoxuna qismətdir ömrün betəri,
Zaman bizim deyil, dövran kimindir?

Baxımı olmasa paslanar dəmir,
Gedər- gəlməzlərdə olmur səs-səmir.
Qoyun bəsləməyən təzə süd əmmir,
Sürü bizim deyil, çoban kimindir?

Bəşərin yarısı səcdəyə durur,
Ürəklər o zaman azanla vurur.
Hardandır bu hikmət, hardan bu onur
Tanrımız sağ olsun, Quran bizimdir.

Elimdir, obamdır Gəncə, Ərdəbil,
Heç kəs bu dünyada arxasız deyil.
Ey yada güvənən fərsiz mötədil,
Bu ucsuz-bucaqsız Turan bizimdir.

## BAHAR GÜLÜ

Bahar gülü ertələr
Hey şeh qoyur soyuqdan.
Elə bil sevənlər tək
Dərd çəkir ayrılıqdan.

Təbəssümü gizlənir,
Yumulan yarpağında.
Həsrət, hicran giləsi,
Xallanır yanağında.

# FƏLƏK

Kim desəydi inanmazdım, bilək gərək,
Bu gərdişin hakimi var, adı: "fələk".

Arşınıyla ölçür-biçir bu həyatı,
Seçə bilmir nə doğmanı, yadı fələk.

Günlərimiz bir-birindən yeknəsəqdir,
Heç qalmayıb ömrün-günün dadı, fələk.

Bir arzuma çatdırmağı bacarmırsan,
Keçirirsən boğazıma çatı, fələk.

Kim acizlik aşıladı bu millətə,
Mərd olubdu bu millətin zatı, fələk.

Birləşsələr 40 milyonluq bir ordudur,
Dövran qurub quzey, güney, batı fələk.

40 milyonluq bir dövlətin himnin yazım,
Bayrağımız olsun birlik andı, fələk.

Sürünərək yaşamağın tərkin qılaq,
Ellərimiz yəhərləyib atı, fələk.

Sülh istəyir dinc əkinçi, uşaq, qadın,
Müharibə axı qada-qandı, fələk.

Düşmənin də qadını var, körpəsi var,
Sülhü anlat, bu hikməti qandır fələk.

Neçə-neçə əlil, şikəst, xəstəmiz var,
Kimi haqlı, kimi haqsız sandı fələk?

Gör nə qədər şəhidimiz qurban gedib,
İnsan haqqın axı kimlər dandı fələk?

İndi dünya qəti fikrə tərəf durur,
Bəsdir, düşmən bizi zəif sandı, fələk.

Amerika terrorçuya zərbə vurur,
Bir bax, Sudan, Əfqanıstan yandı, fələk.

Vətən, torpaq, millət üçün qurban getmək,
Övlad üçün fəxri addı-sandı, fələk.

Ümidimdir, pənahımdır cəsurluğu,
İgid oğul bir şərəfdir, şandır, fələk.

Havalanır "Qarabağın şikəstəsi",
Ölməz ruhu haray çəkən Xandı, fələk.

Ölümlərdən, itimlərdən keçir insan,
Kəşf etmişik xamralını, cadı fələk.

Firavanlıq haqqı da var insanların,
Əzizləyək həm qəmlini, şadı fələk.

Bu dünyaya gəlmişik ki, xoş gün görək,
Çox şirindi bu həyatın dadı, fələk.

Bu torpağın bərəkəti gözə gəlib,
Bu torpağın sərvətdir hər qatı, fələk.

Məhəbbətlə safa çıxar qoca dünya,
Dar günündə qiyaməti andı, fələk.

Məhəbbətə, eşqə tapın, xeyrə yönəl,
Sevən insan sanır bəydi, xandı fələk.

Ağaverdi, vətəninə canım qurban,
Bu həyatda ən şirin şey candı, fələk.

## İNSAN HAQLARI

*...Amerikada heyvanların dərisindən paltar tikilməsinə qarşı çıxan, heyvan haqlarını qoruyanlar var...*
*...Bosniyada isə adamlara 2 litr benzin içirdib od vururmuşlar...*
*Məmməd Aslanın televiziyada müsahibəsindən*

Benzini içirdib, odu vurdular,
Sonra dövrə vurub nəşə qurdular,
Bosniya haqqını arayan hanı?

Atəş içindədir odur Kosova,
Sıxıntı keçirir o el, o oba,
Zəifin haqqını qoruyan hanı?

Amerika yaxaladı terroru,
Sudan, Əfqanıstan qət etdi zoru.
Terror aktlarını arayanı var.

İnsan haqlarını tanıyın. Amin!
Haqsızı haqqına dannayın.Amin!
Insan haqlarını qoruyanı var.

Heyvan dərisindən plaş tikməyin,
Heyvan dərisindən qaloş tikməyin,
Heyvan haqlarını qoruyanı var.

Qadın var ingilis, alman, faransız...
Onlar haqlımıdır dünyada yalnız?
Qadın haqlarını qoruyanı var.

Uşaqlıq dünyamız nə bəxtiyardı,
Diyar var, uşaqlar çox ixtiyardı,
Uşaq haqlarını qoruyanı var.

Işğaldı, torpağım qiymə-qiymədi,
Xoşbəxt günümüzü düşmən çeynədi,
Başın tumarlayıb darayanı var.

Ələ salınıbdır qisas, intiqam,
Dözümlü olmaqdan bezibdi adam,
Çadır şəhərcikdə zarıyanı var.

Dul dedilər şəhid verən gəlinə,
Oğlanlar üz tutub yadlar elinə,
Demir gözləyəni, qarıyanı var.

Çətindir yaşayış, görürəm fərqi,
Amma necə deyim yoxdur tərəqqi,
Bu eldən, obadan yarıyanı var.

Heç də yox deyildir qədir biləni,
Sevib-seviləni, deyib-güləni,
Xoşbəxt günlərini arayanı var.

Duydum, ürəyinin əriyir yağı,
Var "Yurd göynərtisi", "Dədə ocağı"[1]
Nərimanoğlutək arayanı var.

Murovda qaynadı ölüm qazanı,
Yandırdılar Ağdabanlı Musanı,
Musanın haqqını qoruyan hanı?

Əsir düşməyəcək əmindir, əmin,
Qayadan atıldı bir qız, bir gəlin.
Qadın haqlarını arayan hanı?

Qana bələnmişdi hər qarlı təpə,
Soyuqdan donmuşdu südəmər körpə
Uşaq haqlarını qoruyan hanı?

Haqq yolunda verdik şəhid, yaralı,
Xatın dərdin dalda qoydu "Xocalı",
Yaramıza məlhəm sarıyan hanı?

İşsizlik, ehtiyac dönüb qılınca,
"Azlıq" harınlaşıb, təzad var bunca,
Məzlumu, yoxsulu arayan hanı?



[1] "Yurd göynərtisi", "Dədə ocağı" Şair, jurnalist Məhəmməd Nərimanoğlunun qələminin məhsullarıdır. Bu kitablarda müharibə ağrı-acılarından, düşmənlərimizin acımasız olduqlarından bəhs edilir. Ağdabanlı (Kəlbəcər rayonu) Musaya qarşı edilən vəhşilikləri ilk dəfə ondan eşitmişəm.

Dərs vaxtı küçədə dilənir uşaq,
Ailə var güvənir bir ona ancaq,
Ailə haqlarını qoruyan hanı?

Dünya seyriçidir, səsimiz yetmir,
Bu tərəfkeş dünya bizi eşitmir,
Haqlını-haqsızı arayan hanı?

Heyvan haqlarını qoruyanı var,
Qadın haqlarını qoruyanı var,
Uşaq haqlarını qoruyanı var,
Terror aktlarını arayanı var.
Bosniya hoqqasın arayan hanı?
Kosova haqqını arayan hanı?
Musanın haqqını qoruyan hanı?
Qarabağ haqqını arayanı var?
İnsan haqlarını arayan hanı?

**Bakı, 05.08.98.**

# KİTABIN İÇİNDƏKİLƏR


**Ön söz. Yurd həsrətli şair dünyası .................. 3**

Mənim şeirlərim ............................................... 10
Başqa yazdır ..................................................... 11
Vur kamandir, vur............................................. 12
Mənim məzunlarım .......................................... 14
Qarabağ atı...................................................... 16
İnsan gözləri .................................................... 18
İgidin eşqi ....................................................... 20
Hardasan...? Harda…?...................................... 21
Xudamın eşqinə ................................................ 22
Bir az hicran yaşa ............................................ 23
Öz dilimdədir.................................................... 23
Cəllad................................................................ 25
Öhdəmdəsən ..................................................... 27
Qarşılama lal məni............................................ 28
Məndə sevmək üçün ürək qalmayıb ................ 29
Dördlüklər......................................................... 30
Müzəffər ilim.................................................... 31
Gedən deyiləm.................................................. 32
Tanrıma sözüm olacaq...................................... 33
Müharibələrsiz ömür ....................................... 34
Necə müsəlmansan, necə məmursan ................. 34
İstəyirəm.......................................................... 36
Bayatılar .......................................................... 36

Yaxşı yol ........................................................ 39
Məhəmməd, gəl gedək Əfəndilərə .................... 40
Dostların təbriki ............................................... 42
Mehmanı olmuşduq Əlisəfanın ........................ 43
Bir əlimiz yaxanda .......................................... 45
Kəlbəcər ............................................................ 46
Yalqız lalə ........................................................ 48
Sən sevdiyin gün .............................................. 49
Oyan müdir ...................................................... 50
Xeyirxahlıq ...................................................... 52
Yuxularım ........................................................ 54
Güvənək bütövlük şüarlarına ............................ 55
Qiyamət qopar ................................................. 57
Sevgili qumrular .............................................. 58
Kişi elə kişidir ................................................. 59
Hərtiz dağına ................................................... 60
Qocalığım ........................................................ 62
Ay İsmayıl gəl .................................................. 63
Günü faciə ....................................................... 64
Oğluma xitab .................................................... 65
Güdükçü Bəkir .................................................. 66
Yeddi səsin himni ............................................. 67
Eşqim, məhəbbətim, sevgilim Şuşa .................. 70
Bizim vağzalımız çalınmayacaq ....................... 71
Məhəbbətimin ardınca ...................................... 72
Günəşin haləsi sən ............................................ 73

Son nağıl ............................................................ 73
Bircə çatım ilinə ................................................ 74
İkinci eşq nağılı ................................................ 76
Bu bizim ellərin Zəmzəm suyudu...................... 78
Səni başqa türlü çözəmmirəm ki ....................... 79
Gül ətirlim, ay üzlüm......................................... 79
O balaca kişidir.................................................. 80
Cuppulu xanım ................................................... 82
Əlvida söylədi..................................................... 83
Qəhvəyi gözlər.................................................... 84
"Soyuq" ............................................................... 85
Şəhid sonası ........................................................ 86
Sənsə etinasız ..................................................... 87
Bir gülmüş anam.................................................. 88
Şükür.................................................................... 91
Şeirimlə döyəcəm ............................................... 92
İnsansız keçinər bu dünya, bilim?!..................... 93
Nəsimiyə nəzirə .................................................. 94
Məni bir meh yıxar... .......................................... 95
Dəli könül ........................................................... 97
İnsan .................................................................... 98
İnsan deyil, əsla.... ............................................. 100
Ay Ariz................................................................ 101
Aşıq Ədalət Mirovdağlıya ................................. 103
Səni görəndə ...................................................... 104
Gəl, gül ək ......................................................... 105

*Bizim vağzalımız çalınmayacaq*

44 günlük ay .................................................. 106
Azərbaycan əsgəri .......................................... 107
Gedir ............................................................. 109
Bizim iki nöqsanımız..................................... 110
Ufaq yuva ..................................................... 116
İncə hesab çəkir ............................................ 118
Ədalət yaşayır tor gözlərimdə ......................... 119
Qorxdum ki..................................................... 120
Yazılım YAP-a ............................................... 121
Qara daşlar göyərdi......................................... 123
Şəhid əsgərin məktubu ................................... 124
Nəsihət........................................................... 126
Oğru bizik, doğru ana (poema)........................ 128
Salam məmləkətim, a mənim kəndim (poema) .. 132
Bu dünya narahatdı......................................... 138
Turan bızımdır ................................................ 139
Bahar gülü ..................................................... 140
Fələk .............................................................. 141
İnsan haqları .................................................. 143

**AĞAVERDİ NƏSİROV**
**(AĞA AQİL)**

# BİZİM VAĞZALIMIZ ÇALINMAYACAQ

Müəlliflə əlaqə:
055-580-09-39 / 070-580-09-39

Korrektor: A.V.Əiyeva
Dizayner və səhifələyici: Tünzalə Tağıyeva

Çapa imzalanmışdır: 07.05.2022
Kağız formatı: 84x108 1/32
Həcmi: 5,2 ç.v.
Sifariş: 72
Tiraj: 500

"Gənclik" nəşriyyatında nəşrə hazırlanmış və
ofset üsulu ilə çap edilmişdir.